Xalqın qəzeti!
# Xalq qəzeti
№ 001 (30405) 8 yanvar 2024-cü il, bazar ertəsi
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

# 2024 – Yaşıl dünya naminə həmrəylik ili

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti



**– Əziz həmvətənlər.**

2023-cü il arxada qalır. 2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələr baş vermişdir. Ancaq o hadisələrin arasında dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır. 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam bərpa etmişdir, işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması təmin edilmişdir, düşmən ordusu məhv edilmiş, düşmənin hərbi texnikası məhv edilmiş və ya qənimət kimi götürülmüşdür. Bu tarixi hadisə münasibətilə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm.

2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi.

Üç il ərzində biz bunu sülh yolu ilə həll etmək istəyirdik. Hesab edirdik ki, Ermənistan rəhbərliyi İkinci Qarabağ müharibəsinin nəticələrini düzgün təhlil edərək özü üçün nəticə çıxaracaq. Əfsuslar olsun ki, bu, belə olmadı. Üç il ərzində Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri nəinki yerinə yetirmədi, hətta əksinə, bizə qarşı yeni hərbi təxribatlar hazırladı və onları həyata keçirdi. Qanunsuz olaraq torpağımızda məskunlaşmış 15 minlik Ermənistan ordusu Qarabağdan çıxarılmadı. Əksinə, yeni silahlar, sursatlar, hərbi texnika, minalar Qarabağa gətirildi və bizə qarşı mina terroru davam etdirildi.

Təbii ki, biz bu vəziyyətlə barışa bilməzdik. Dəfələrlə Ermənistan rəhbərliyinə və onun arxasında dayanmış Qərb ölkələrinə xəbərdarlıq etmişdik ki, bu vəziyyət davam edə bilməz. Ya separatçı rejim özünü buraxmalıdır, Ermənistan ordusu bizim ərazimizdən çıxarılmalıdır, ya da ki, biz güc tətbiq edərək dövlət suverenliyimizi özümüz bərpa edəcəyik. Əfsuslar olsun ki, bizim sözümüzə diqqət yetirilmədi. Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Separatçı rejim çökmüş, bizim qarşımızda diz çökmüş, ağ bayraq qaldırmış, təslim olmuş, torpaqlarımızdan əbədi olaraq çıxarılmış və tarixin zibilxanasına atılmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi və separatizm - bu bəla bizim torpağımızda bir daha baş qaldıra bilməz.

*(ardı 2-ci səhifədə)*

# ABŞ-ın dini manipulyasiyası: Azərbaycan nə üçün hədəfdədir?

### Birləşmiş Ştatlar ümumbəşəri dəyərləri qlobal siyasətə qurban verir



**Məlum olduğu kimi, ABŞ, guya, etiqad azadlığını pozduğu üçün Azərbaycanın adını "qara siyahı"ya daxil edib. Əlbəttə, ilk baxışdan, ağla gələsi şey deyil. Bunu kim düşünüb, kim belə bir nəticəyə gəlib? Adətən, belə məsələlərin altından həmişə bir erməni barmağı çıxır. İş ondadır ki, Birləşmiş Ştatların Dövlət Departamentinin dünyadakı dini durumla əlaqədar azadlıq indeksini də, onun Azərbaycanla bağlı reallıqdan uzaq hissəsini də erməni millətçisi Daniella Aşbaxyan hazırlayıb.**

Amma fikrimizcə, D.Aşbaxyanın timsalında erməni amili sadəcə sığortadır. Axı, vəziyyət düz getməyəndə hər şeyi onun boynuna atmaq mümkündür. Vəziyyət isə düz getmir. İkinci sığorta da elə bununla bağlıdır. Əslində, ABŞ Dövlət Departamenti hesabatın hazırlanmasını erməniyə həvalə edirsə, deməli, Azərbaycanın əks arqumentləri üçün, belə demək mümkünsə, tutarlı əl yeri qoyur. Onsuz da hazır mətndir, onu kimin ərsəyə gətirməsinin heç bir önəmi yoxdur. Yəni, bildirilə bilərdi ki, dini azadlıq indeksini hazırlayan Aşbaxyan deyil, məsələn, hansısa Coni Styuartdır. Bir sözlə, rəsmi Vaşinqton oyun oynayır. Söhbət siyasi oyundan gedir və onun ilk kazusu təxminən belədir: siz erməniləri əzdiniz, indi ermənilər sizi əzirlər. Dərin düşünürlər. Düşünsünlər. Amma dərinliyi şərtləndirən başqa cəhətlər də var ki, bu barədə söz açacağıq.

*(ardı 4-cü səhifədə)*

# Azərbaycan – regionun şəriksiz lideri

### Bu qənaətə gələn rusiyalı politoloqun keçən ilin yekunları ilə bağlı dedikləri maraq doğurur



**Dünyanın siyasi coğrafiyasında özünəməxsus müstəqil dövlət nümunəsini ortaya qoymuş Azərbaycan təkcə liderinə çevrildiyi Cənubi Qafqazda deyil, eyni zamanda, beynəlxalq arenada söz sahibidir. İsitisnasız surətdə milli maraqlarından çıxış edən, heç kəsdən asılı olmayan ölkə statusunu sübuta yetirmiş Azərbaycan, eyni zamanda, daxili sabitliyə malik, bloklara qoşulmayan güclü ölkə modelidir. Bəli, məhz dövlətin və xalqın maraqları naminə balanslaşdırılımış uğurlu xarici siyasət yeridən Azərbaycan hakimiyyəti Rusiya ilə Qərbin qarşıdurmasında iştirakdan da kənardadır. Bu həqiqəti dünyanın nüfuzlu beyin mərkəzləri ilə yanaşı, tanınmış siyasətçilər, politoloqlar da etiraf edirlər.**

Reallığı olduğu kimi qəbul edən, son üç ildə bölgədə cərəyan edən hadisələri haqq və ədalət prizmasından dəyərləndirən siyasi ekspertlərdən biri də Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti, "Kommersant" nəşrlər evinin icmalçısı, politoloq Aleksey Naumovdur. Tanınmış siyasi ekspert "Caliber.az" saytına müsahibəsində Cənubi Qafqazda vəziyyətin normallaşmasının alternavinin olmadığı, İrəvanın Bakı ilə sülh sazişini imzalamaqdan başqa yolunun qalmadığı, Rusiya və Ermənistan arasında gərginləşmənin səbəbləri, eləcə də Rusiya – Azərbaycan əməkdaşlığının yeni inkişaf mərhələsinə qədəm qoyması kimi mövzulara toxunub. A.Naumovun müsahibəsinin qısa icmalını oxuculara təqdim edirik.

*(ardı 9-cu səhifədə)*

# Napoleon, Paşinyan və II Qaregin

### Nikolun dini dözümsüzlüyü, yoxsa…

**Napoleon Bonapart hakimiyyətə gələndə dinin dövlət üzərindəki təzyiqini sıradan çıxarmaq üçün imperator tacını başına özü qoymuşdu. Halbuki, həmin vaxtadək olan ənənəyə görə, nəinki Fransada, Qərbi Avropa dövlətlərində tacqoymanı Roma papası gerçəkləşdirirdi. Əlbəttə, məqsədimiz heç də Napoleonla Ermənistanın baş naziri Nikol Paşinyanı müqayisə etmək deyil. Burada məqsəd Paşinyanın erməni kilsəsini sıxışdırmaq, onun ölkə həyatındakı rolunu azaltmaq niyyətidir.**



Aydındır ki, N.Paşinyan rusپərəst erməni kilsəsini öz hakimiyyətinə qarşı təhlükə hesab edir. O da aydındır ki, Nikol ilk fürsətdəcə Ermənistandakı dini quruluşu dəyişməyə qol çırmayacaq. Ancaq hələlik bunu edə bilmir. Daha doğrusu, problemlərdən başı açılmır ki, mövcud istiqamətdə nələrisə gerçəkləşdirsin.

*(ardı 4-cü səhifədə)*

# Təmiz ətraf mühit gələcəyə keçidin xilas körpüsüdür

Səhifə ⇨ 8

# Dövlətin əli kəndin üstündədir



Səhifə ⇨ 7

# Muzeylərimiz dünənimizi yaşadır

Səhifə ⇨ 10

# Kiyevin silah-sursat problemi artır



Səhifə ⇨ 11

# Ötən ilin 11 ayında ölkənin ixrac mənzərəsi

Səhifə ⇨ 7

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Ordusu bir daha peşəkarlıq, qəhrəmanlıq, əsgər və zabitlərimiz fədakarlıq göstərmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Onu bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmadı. Həm Birinci, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı zamanı şəhid olmuş əsgər, zabitlərimizin, mülki şəxslərin, Xocalı qurbanlarının qisası döyüş meydanında alınmışdır.

2023-cü ilin aprel ayında isə biz ərazi bütövlüyümüzü tam bərpa etmişdik. Azərbaycan–Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsi qurulmuş və o gündən bəri Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmişdir. Azərbaycan xalqı yaxşı xatırlayır ki, dünyada, xüsusilə Qərb ölkələrində Ermənistanın arxasında dayanan, onlara daim dəstək göstərən ölkələrdə nə qədər hay-küy qaldırılmışdı, bizə qarşı əsassız ittihamlar irəli sürülmüşdü. Heç bir ittiham, heç bir təzyiq bizim iradəmizə təsir edə bilmədi. Mən o vaxt da demişdim ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, öz sərhədimizi özümüz nəzarətə götürmüşük və heç kimə imkan verməyək ki, bizim torpağımızda at oynatsın. Bu, bizim torpağımızdır, bu torpağın sahibi bizik, nə lazım biliriksə, onu da edəcəyik, beynəlxalq hüquq çərçivəsində, o cümlədən beynəlxalq humanitar hüquq çərçivəsində. O da dərs olmadı işğalçılara, o da dərs olmadı onların arxasında dayanan anti-Azərbaycan qüvvələrə. Ona görə sentyabr ayında keçirilmiş antiterror əməliyyatı labüd idi və biz bunu keçirdik, bununla da fəxr edirik, qürur hissi keçiririk. Hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı haqlı olaraq qürur hissi keçirir.

Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq bu il 5 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır. Bu ilin mart ayında - Novruz bayramı ərəfəsində Talış kəndində bayram sevinci yaşandı, köçkünlər öz doğma evlərinə qayıtmışdılar. Avqust ayında Füzuli şəhəri və Zabux kəndi bayram içində idi. Bu il Laçın şəhərinə Müstəqillik Gününü qeyd edərkən köçkünlər qayıtmışdır – 28 May tarixində Laçında böyük bayram günü idi. Ondan əvvəl, bildiyiniz kimi, Ağalı kəndində köçkünlər məskunlaşmış və beləliklə, beş yaşayış məntəqəsində indi həyat bərpa edilib.

Onu da bildirməliyəm ki, 2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. Bu müjdəni mən bu gün onlara vermək istəyirəm və bildirmək istəyirəm ki, il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar.

Bundan başqa, bir neçə yaşayış məntəqəsi də keçmiş köçkünləri qəbul etməyə hazır olacaq. Biz – bu torpaqların sahibləri qurub-yaradanıq. Biz qurub-yaradan xalqıq. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı dağıdaraq bütün evləri, tarixi binaları, məscidlərimizi yerlə-yeksan etmiş, bizə qarşı soyqırımı, eyni zamanda, urbisid, ekosid törətmişlər. Bizim çaylarımız zəhərləndi, bizim meşələrimiz qırıldı. Bütün bunları edən Ermənistan dövləti idi. Əfsuslar olsun ki, bu cinayətlərə görə onlar bu günə qədər Qərbdə qınaq obyektinə çevrilmədi.

Bu gün Qərbdə ikili standartlar hökm sürür. Azərbaycan xalqı bunu yaxşı bilir və eyni zamanda, yaxşı bilir ki, biz bütün təzyiqlərə, bütün hədə-qorxulara, əsassız ittihamlara baxmayaraq bildiyimizi edəcəyik. Necə ki, etmişik, bundan sonra da edəcəyik. Ermənistan rəhbərliyi də bu tarixi dərslərdən nəticə çıxarmalıdır və özünü elə aparmalıdır ki, bizim qəzəbimizə tuş gəlməsin.

Biz bu il iqtisadi sahədə öz siyasətimizi uğurla aparmışıq. Müstəqil iqtisadiyyat bizə imkan verir ki, heç kimdən asılı olmayaq, heç bir beynəlxalq maliyyə institutundan asılı olmayaq və asılı deyilik.

Biz Ordumuzu böyük dərəcədə gücləndirmişik, həm peşəkarlıq artdı, yeni silahlı birləşmələr yaradıldı və bu silahlı birləşmələr digər silahlı birləşmələrlə birlikdə antiterror əməliyyatında çox böyük peşəkarlıq göstərmişlər. Yeni silahlar, hərbi texnika alındı, gətirildi, bir çox yeni kontraktlar imzalandı. Onu da bildirməliyəm ki, gələn il hərbi təyinatlı yerli istehsal böyük dərəcədə artacaq. Gələn il həm dövlət, həm özəl sektor tərəfindən hərbi təyinatlı məhsulların istehsalına ən azı bir milyard manat sərmayə qoyulacaq. Beləliklə, biz nəinki özümüzü əsas vasitələrlə təmin edəcəyik, Azərbaycan dünya miqyasında çox ciddi ölkəyə çevriləcək, bizim hərbi təyinatlı məhsullarımızın həcmi və sayı böyük dərəcədə artacaq.

Bizim beynəlxalq nüfuzumuz gündən-günə artır. Dekabr ayında dünyanın ən böyük beynəlxalq konfransının Azərbaycanda keçirilməsi haqqında bütün dünya ölkələri yekdil qərar qəbul etmişlər – COP29 gələn il Azərbaycanda keçiriləcək. Bu, bizə dünya ictimaiyyəti tərəfindən göstərilən böyük hörmət və rəğbətdir, eyni zamanda, bizim yaşıl enerjiyə keçidimizə olan böyük qiymətdir. Yaşıl enerji keçidi bizim prioritet məsələmizdir və bu il Azərbaycanda bölgənin ən böyük birpaolunan elektrik enerjisi stansiyası istifadəyə verilmişdir – 230 meqavat gücündə günəş elektrik stansiyası artıq bizim enerji sistemimizə tam inteqrasiya edilmişdir. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında yaxın bir neçə il ərzində Azərbaycanda 10 min meqavat bərpaolunan enerji növləri, enerji mənbələri yaradılacaq və bu sahədə də Azərbaycan dünyada liderlər sırasında olacaqdır. Əlbəttə ki, COP29 – iqlim dəyişikliyinə həsr edilmiş bu beynəlxalq konfransın Azərbaycanda keçirilməsi bir daha bu sahədə bizim uğurlarımızı əyani şəkildə göstərir.

Bu il Azərbaycanda "Heydər Əliyev İli" elan edilmişdir. Ulu öndərin 100 illiyi ölkə üzrə qeyd edildi. Mən mənim üçün bu əziz günü – atamın doğum gününü Şuşada keçirdim. Şuşanın mərkəzi meydanında Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi bildirdim və dedim ki, Ulu öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir. Mən hesab edirəm ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndində qaldırdığım Dövlət Bayrağımız Ulu öndərin xatirəsinə ən böyük hörmətin əlamətidir. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradımız Ulu öndərin xatirəsinə ən böyük hörmətimizin əlamətidir.

Bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər. Bu gün dünya azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü tam yeni bir ovqatla qeyd edirlər. Artıq üç ildir ki, dünya azərbaycanlıları bütün Azərbaycan xalqı kimi ruh yüksəkliyi ilə yaşayır, başını dik tutub yaşayır, alnıaçıq, üzüağ yaşayırlar.

Tarixi Zəfərimiz – İkinci Qarabağ müharibəsindəki Zəfər, antiterror əməliyyatı, işğalçılardan azad olunmağımız, separatçı rejimin çökməsi bütün azərbaycanlıları haqlı olaraq bir araya, bir yumruq halına gətirir. "Dəmir yumruq" bizim Zəfər salnaməmizin rəmzi idi. Bu gün, eyni zamanda, "Dəmir yumruq" birliyimizin rəmzidir və Azərbaycan xalqını, bütün dünya azərbaycanlılarını əmin etmək istəyirəm ki, **"Dəmir yumruq" hər zaman yerində olacaq.**

Əziz bacılar və qardaşlar, sizə cansağlığı, uğurlar arzulayıram. Arzu edirəm ki, 2024-cü il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olsun. Bayramınız mübarək olsun!

## Azərbaycanın pravoslav xristian icmasına

**Hörmətli həmvətənlər!**

Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Zəngin tolerantlıq ənənələri ilə tanınan Azərbaycanda ayrı-ayrı xalqların və dinlərin mənsubları yüz illərdir ki, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar. Biz cəmiyyətimizin üstün keyfiyyətlərindən olan etnik-dini müxtəlifliyi dövlətçiliyimizin misilsiz nailiyyəti kimi qiymətləndirir, ölkəmizdə hökm sürən demokratik birgəyaşayış mühitinin qorunub saxlanılmasını, humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin təbliği və təşviqini dövlət siyasətimizin prioritet istiqamətlərindən biri hesab edirik.

Təqdirəlayiq haldır ki, xristian həmvətənlərimiz nümunəvi dövlət-din münasibətlərinin yaratdığı geniş imkanlardan yararlanaraq özünəməxsus adət-ənənələri, dil və mədəniyyəti yaşadır, ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərində, ictimai-siyasi həyatımızın bütün sahələrində digər etiqadların nümayəndələri ilə birlikdə yaxından iştirak edirlər.

Əziz həmvətənlər!

Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

**Bayramınız mübarək olsun!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 yanvar 2024-cü il**

## Azərbaycan – Yaponiya: "yaşıl cəmiyyət" ortaq prioritetdir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 7-də Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Katsuya Vatanabenin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir Katsuya Vatanabe Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitonun Yaponiya–Azərbaycan əlaqələrinin daha da inkişaf etdirilməsi ilə bağlı arzusunu dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev minnətdarlığını bildirərək, onun da xoş arzularını Yaponiyanın İmperatoruna çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq münasibətlərinin 30 ildən artıqdır ki, müxtəlif sahələri əhatə etdiyini vurğulayaraq bütün istiqamətlərdə yaxşı nəticələrin əldə olunduğunu bildirdi, qarşıdan gələn illərdə əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev ənənəvi sahələrdən başqa əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycan Prezidenti ilə görüşdən böyük şərəf hissi duyduğunu deyən Katsuya Vatanabe xoş sözlərə görə minnətdarlığını bildirdi. O, ölkələrimiz arasında dostluq və xoş münasibətlərin mövcud olmasında dövlətimizin başçısının rolunu xüsusi qeyd etdi.

Səfir COP29-un bu il Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilmiş qərarla bağlı münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi və qeyd etdi ki, yaşıl iqtisadiyyata keçid, yüksək texnologiyaların inkişaf etdirilməsi Azərbaycanın prioritet istiqamətlərindən biridir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan COP29 çərçivəsində Yaponiya ilə birgə iş birliyinə hazırdır.

Katsuya Vatanabe öz növbəsində qeyd etdi ki, ölkəsi yaşıl cəmiyyətin qurulması, yüksək texnologiyalar əsasında inkişafa mühüm əhəmiyyət verir və bu sahədə də ölkələrimiz arasında əməkdaşlıq üçün böyük imkanlar var. Səfir Azərbaycan-Yaponiya əlaqələrinin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi.

## Lüksemburqla əməkdaşlıq imkanları genişdir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 7-də Lüksemburq Böyük Hersoqluğunun ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alain de Muyserin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir Alain de Muyser Lüksemburqun Azərbaycanda akkreditə edilən ilk səfiri olmasından məmnunluğunu bildirərək, bu təyinatın və səfir kimi fəaliyyətinin ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafına, eyni zamanda, insanlar arasında təmasların artmasına xidmət göstərəcəyini qeyd etdi.

Prezident İlham Əliyev Lüksemburq Böyük Hersoqluğunun səfirinin Azərbaycanda akkreditə olunmasını əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Lüksemburq arasında əlaqələrin həm də Avropa İttifaqı çərçivəsində əməkdaşlıq baxımından önəmini qeyd etdi. Prezident İlham Əliyev əməkdaşlığın inkişafı üçün səylərin fəallaşdırılmasının zəruriliyini bildirdi. Alain de Muyserin səfir kimi əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvarlığını ifadə edən Azərbaycan Prezidenti ona fəaliyyətində uğurlar arzuladı.

Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı surətdə məlumatlandırmanın və iqtisadi təmasların artırılmasının vacibliyi qeyd olundu.

Səfir COP29-un Azərbaycanda keçirilməsi barədə qəbul edilmiş qərarla bağlı təbriklərini dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Yaşıl enerjiyə keçid, yüksək və kosmik texnologiyalar sahələrində Lüksemburqun zəngin təcrübəyə malik olduğunu deyən səfir bu sahədə də əməkdaşlıq üçün böyük imkanların olduğunu qeyd etdi. O, Lüksemburqun əsas daşıma şirkəti olan "Cargolux" ilə Azərbaycanın uğurlu əməkdaşlıq etdiyini vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında bank, maliyyə, nəqliyyat və digər sahələrdə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparıldı.

## Uruqvay Azərbaycanın mövqelərini daim dəstəkləyir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 7-də Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sezar Auqusto de las Kasas Diasın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Sezar Auqusto de las Kasas Dias Peru Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Səfir ölkəsinin dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə daim sadiq olduğunu və buna xüsusi əhəmiyyət verdiyini qeyd edərək, bu xüsusda Perunun Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Peru Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Azərbaycanın da dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə daim böyük əhəmiyyət verdiyini, ölkələrimizin Qoşulmama Hərəkatı və digər beynəlxalq təsisatlar çərçivəsində əməkdaşlıq etdiyini məmnunluqla vurğuladı.

Beynəlxalq hüququn prinsiplərinin, eyni zamanda, Qoşulmama Hərəkatının əsas prinsipləri olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin 4 ildir bu hərəkata fəal şəkildə sədrlik etdiyini dedi, ölkələrimizin bundan sonrakı illərdə də bu mühüm beynəlxalq institutun önəminin daha da artırılması istiqamətində birgə səylər göstərəcəyinə ümidvarlığını bildirdi. Azərbaycan Prezidenti, həmçinin digər beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də beynəlxalq hüququn fundamental prinsiplərinin hökm sürməsi istiqamətində birgə fəaliyyətlərinin davam etdirilməsinin də zəruriliyini qeyd etdi.

BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə baxmayaraq, ölkəmizin 30 ildən çox idi Ermənistan tərəfindən sərhədlərinin pozulduğunu və torpaqlarının işğal olunduğunu deyən dövlətimizin başçısı Azərbaycanın beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa uyğun olaraq gücdən istifadə edərək ədaləti özünün bərpa etdiyini vurğuladı.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir xüsusilə Azərbaycanın enerji sahəsində əldə etdiyi uğurlar nəzərə alınaraq bu sahədə əlaqələrimizin inkişafı üçün yaxşı potensialın olduğunu vurğuladı.

Səfir ölkəsinin arxeologiya və mədəniyyət abidələrinin qorunması sahəsində təcrübəyə malik olduğunu deyərək, bu istiqamətdə də əməkdaşlıq imkanlarının mövcudluğunu qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə Peru arasında ticarət dövriyyəsinin artırılmasının, iqtisadi münasibətlərin fəallaşdırılmasının vacibliyi qeyd edildi, bu xüsusda iki ölkənin biznes dairələri arasında əlaqələrin yaradılmasının zəruriliyi bildirildi.

Görüşdə sərmayə qoyuluşu və qarşılıqlı maraq doğuran investisiya layihələrinin müəyyən edilməsinə, bu xüsusda ölkələrimizin nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinə dair fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Kuba Respublikasının Prezidenti Zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə

**Hörmətli cənab Prezident,**

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan-Kuba ənənəvi dostluq münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin möhkəmləndirilməsi, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Yeni, 2024-cü il münasibətilə də Sizə ən səmimi təbriklərimi çatdırır, dost Kuba xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 dekabr 2023-cü il**

# M.B.Babayevin Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının Prezidenti müəyyən edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası ətraf mühitin qorunmasına, iqlim dəyişmələrinin qarşısının alınmasına xüsusi əhəmiyyət verir.

Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonası elan olunması, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin təzahürüdür.

İqlim dəyişmələrinin qarşısının alınması sahəsində Azərbaycanın həyata keçirdiyi fəaliyyət beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Məhz bu səbəbdən, iştirakçıların sayına və səviyyəsinə, müzakirəyə çıxarılan məsələlərin aktuallığına görə dünyada ən mötəbər tədbirlərdən biri hesab edilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) dünya ölkələrinin yekdil qərarı ilə 2024-cü ildə Azərbaycanda keçiriləcəkdir.

Azərbaycan beynəlxalq ictimaiyyətin ona böyük hörmət və etimadının göstəricisi olan bu nüfuzlu sessiyanın yüksək səviyyədə təşkil edilməsi, ölkəmiz və bəşəriyyət üçün uğurlu nəticələrlə yekunlaşması naminə bütün zəruri tədbirləri görəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, habelə formalaşmış beynəlxalq təcrübəni nəzərə alaraq **qərara alıram:**

**1.** Muxtar Bahadur oğlu Babayev Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının Prezidenti müəyyən edilsin.

**2.** Müəyyən edilmiş Prezidentə (President-Designate) Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasına və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasına hazırlıq işlərinin aparılması və sədrliyin həyata keçirilməsi üçün məsul nümayəndələrdən ibarət heyətin formalaşdırılması səlahiyyəti verilsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 dekabr 2023-cü il**

# İsveçrə Teleradiosu: "Cənubi Qafqazda tezliklə sülh olacaqmı?"

**İsveçrə Teleradiosunun (SRF) əsas xəbər buraxılışında Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqları və yaxın gələcəkdə regionda əmin-amanlığın tam bərqərar edilməsi imkanlarına dair geniş reportaj yayımlanıb.**




"Cənubi Qafqazda tezliklə sülh olacaqmı?" sərlövhəli reportajda 30 il davam etmiş münaqişədən sonra 2024-cü ildə Cənubi Qafqazda sülhün və əmin-amanlığın bərpa olunmasına ümidlə baxıldığı vurğulanıb.

Bildirilib ki, ötən ilin sentyabrında Azərbaycanın Qarabağda suverenliyini tam bərpa etməsindən sonra Azərbaycan və Ermənistan arasında aparılan danışıqlarda aşkar şəkildə yaxınlaşma müşahidə olunur.

Reportajın əvvəlində böyük tikinti meydançasını xatırladan Füzuli şəhərindən bəhs olunub. Qeyd edilib ki, işğal dövründə xarabalığa çevrilmiş Füzulidə bu gün həyat yenidən qaynamaqdadır. Birinci Qarabağ müharibəsi zamanı Füzulini işğal edən və bütün azərbaycanlıları dədə-baba torpaqlarından qovan Ermənistan üç il əvvəl baş vermiş və böyük itkilər verdiyi müharibə nəticəsində bu ərazilərdən geri çəkilməli oldu.

Reportajda azad olunan ərazilərdə quruculuq işlərini çətinləşdirən amillər arasında mina problemi xüsusi qeyd edilib. Bildirilib ki, mina problemi bərpa və quruculuq işlərini çətinləşdirsə də, indiyədək Füzulinin 30 faizi minalardan təmizlənib və minatəmizləmə əməliyyatları fasiləsiz davam etdirilir. Azərbaycan hökuməti qısa müddətdə bu şəhərdə minədək mənzil inşa etdirib və hər ay öz yurdlarına qayıdan azərbaycanlı ailələrə yeni mənzillərin açarları təqdim olunur. Bununla da Azərbaycanın verdiyi mesaj tam aydındır: Ermənistan nə Füzuli, nə də Qarabağın başqa ərazilərinə bir daha iddia edə bilməz. Eyni zamanda, bildirilib ki, Qarabağın erməniəsilli əhalisi Azərbaycan vətəndaşlığını qəbul edərək həmin ərazilərə qayıdıb yaşaya bilər.

SRF-in reportajında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bu televiziyaya müsahibəsində Azərbaycanın istəyinin bütün Cənubi Qafqazın mənzərəsini dəyişmək olması barədə fikri diqqətə çatdırılıb: "Bu regionun adı gələcəkdə müharibə və münaqişələrlə deyil, şanslar, işgüzar əlaqələr, inkişaf və rifahla bağlı hallanmalıdır".

Bundan başqa, reportajda qeyd olunub ki, Bakıda Azərbaycan Prezidentinin Administrasiyasında yüksək özünəinam hissi hökm sürür, çünki Xəzər dənizi sahilində yerləşən bu metropol bütün regionun iqtisadi mühərrikidir. Zəngin neft və qaz ehtiyatlarına malik Azərbaycan Rusiyaya qarşı tətbiq edilən sanksiyalardan sonra Avropa üçün vazkeçilməz tərəfdaşa çevrilib.

Reportajda Prezident İlham Əliyevin ötən il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmasını əks etdirən kadrlara da yer verilib. Həmçinin Azərbaycanın güclü müttəfiqlərinin olduğu vurğulanıb, bu baxımdan ölkəmizi daim hərbi və geosiyasi müstəvilərdə dəstəkləyən Türkiyə xüsusi qeyd edilib.

***XQ***

# Naxçıvanda pozulmuş mülkiyyət hüquqları təmin edilib

**2023-cü il Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın yeni mərhələyə daxil olduğu, zəruri islahatların gerçəkləşdirildiyi dövr kimi əlamətdar oldu. Vətəndaşların mülkiyyət hüquqlarının pozulması ilə bağlı ortaya çıxan problemlərin həll olunması isə sosial ədalət prinsiplərini bərpa etməklə ümumi məmnunluq yaratdı. Bu mövzuda XQ-nin suallarını Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin hakimi Elnur Hüseynov cavablandırdı:**

***– Ötən il muxtar respublikada mülkiyyət hüquqlarının pozulması ilə bağlı məhkəməyə nə qədər müraciət olub və onlar necə həll edilib?***



– Son 1 ili əhatə edən bu prosesdə vətəndaşların mülkiyyət hüquqlarının pozulması ilə bağlı müraciətlər kifayət qədər çox olub. 2023-cü ilin yanvarından ilin sonunadək Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin icraatına təkcə mülkiyyət hüquqlarının pozulması ilə bağlı əmlak və kompensasiya tələbi üzrə minədək iddia ərizəsi daxil olub. Bunlardan 534 iş üzrə iddia tələbləri cavabdeh inzibati orqanlar tərəfindən məhkəmədənkənar qaydada təmin edildiyindən həmin işlər üzrə icraata xitam verilməsi barədə qərardadlar qəbul edilib. Məhkəmədənkənar işlərdə iddiaçı ilə cavabdeh tərəf – icra hakimiyyəti orqanları arasında mövcud problemin həll olunması təmin edildiyindən həmin işlərə də məhkəmə tərəfindən xitam verilərək qərardad verilib.

Digər əsaslara gəldikdə 122 iş üzrə iddia tələblərinin icrasına xitam verilib. Onlardan 107-si iş üzrə iddia ərizəsi iddiaçı tərəfindən geri götürüldüyünə, 15 işin icraatına isə iddiaçının məhkəmə prosesindən yayındığına görə xitam verilib. Yəni, iş üzrə məhkəmə çağırışlarına etinasız yanaşdığına görə belə qərar qəbul edilib. Belə ki, 17 iş üzrə tələb olunan əmlaka dair mülkiyyət sənədlərinin olmaması əsası ilə mümkün sayılmaması barədə məhkəmə tərəfindən qərardad qəbul edilib. Hazırda isə 327 iş məhkəmənin icraatındadır.

***– Deməli, mülkiyyət hüququ pozulmuş və məhkəməyə müraciət etmiş vətəndaşların yarıdan çoxunun problemi cavabdeh tərəfindən həll olunaraq işə xitam verilib?***

– Bəli, 1000 iddia ərizəsi üzrə işdən 534-ü haqqında qərardad qəbul edilib. Burada cavabdeh tərəf kimi çıxış edən dövlət qurumları iddiaçının problemini həll edərək onun mülkiyyət hüququnu təmin etdiyinə görə məhkəmə orqanına da heç bir ehtiyac qalmayıb.

Digər tərəfdən bunu da qeyd etməliyəm ki, vətəndaşların mülkiyyət hüquqlarının ədalətli, eyni zamanda, operativ şəkildə bərpa olunmasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin nümayəndəliyinin fəaliyyətə başlamasının rolu və mövqeyi danılmazdır. Məhz Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin həyata keçirilən bu tədbirləri diqqət mərkəzində saxlaması mülkiyyət hüquqları pozulmuş vətəndaşların qısa vaxt ərzində hüquqlarının təmin olunmasına imkan vermişdir.

***Müsahibəni apardı:***
***Səbuhi HƏSƏNOV***
***XQ***

# M.Q.Qurbanlının 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Mübariz Qəhrəman oğlu Qurbanlı 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 yanvar 2024-cü il**

# Birinci vitse-prezident Mehriban Əliyevanın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə bağlı paylaşımı




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib.**

**Paylaşımda deyilir:**

**"Əziz bacılar və qardaşlar!**

**Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy, dünya azərbaycanlılarını hər zaman Vətənimizə olan ən nurlu, ən xoş hisslər, ölkəmizin uğurları, nailiyyətləri və qələbələri ilə qürur hissi birləşdirsin. Uca Tanrıdan hər bir vətəndaşımıza möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik, Vətənimizə isə sülh, tərəqqi və əmin-amanlıq diləyirəm.**

**Dərin hörmət və sevgilərlə,**

***Sizin MEHRİBAN"***

# Birinci vitse-prezident Mehriban Əliyeva Milad bayramı münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Milad bayramı münasibətilə ölkəmizdəki xristian icmasını təbrik edib.**

Mehriban xanım Əliyevanın rəsmi instaqram səhifəsində etdiyi paylaşımda deyilir: "Milad bayramı münasibətilə Azərbaycanın xristian icmasını səmimi-qəlbdən təbrik edir, bütün həmvətənlərimizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram!".

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Azərbaycan xalqına Yeni il təbriki

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Azərbaycan xalqını Yeni il münasibətilə təbrik edib.**



Leyla Əliyevanın sosial şəbəkə hesabında etdiyi paylaşımda deyilir: "Yeni iliniz mübarək! Sizə cansağlığı, xoşbəxtlik və bol sevgi arzu edirəm! Allah hamınızı qorusun! Çox sağ olun!".

***XQ***

# ABŞ-ın dini manipulyasiyası: Azərbaycan nə üçün hədəfdədir?



(əvvəli 1-ci səhifədə)

Ondan başlayaq ki, ABŞ Dövlət Departamenti Azərbaycanda, guya, dini etiqad azadlığına etinasız münasibətin hökm sürdüyü, dindarlara qarşı təzyiqlərə dözümlü yanaşıldığı qənaətindədir. Ümumən, bununla bağlı “qara siyahı”da 12 ölkənin adı var: Rusiya, Çin, Birma, Kuba, Şimali Koreya, Eritreya, İran, Nikaraqua, Pakistan, Səudiyyə Ərəbistanı, Tacikistan və Türkmənistan. Ölkəmiz isə xüsusi müşahidə siyahısındadır. Bu siyahıda isə eyni zamanda Əlcəzairin, Mərkəzi Afrika Respublikasının, Qəmər adalarının və Vyetnamın adı var. İfadəyə diqqət yetirək: xüsusi müşahidəçi siyahısı. Oyunun incəliyi də elə bundadır. Hələ dini etiqad azadlığına zidd fəaliyyət baxımından “Əl-Şabab”, “Boko Haram”, Husilər hərəkatı, Taliban və artıq terror təşkilatları kimi tanınan bir sıra digər birləşmələrin də adları çəkilir. Onlar “xüsusi narahatlıq doğuran qurumlar” siyahısına daxildirlər. Yəqin, ABŞ “strateqləri” lütf edirlər bizə. Yəni, sonuncu siyahıda da yer ala bilərdik!

ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinken məsələ ilə bağlı bildirib ki, din və ya inanc azadlığının inkişafı ölkə Konqresinin 1998-ci ildə Beynəlxalq Dini Etiqad Azadlığı Aktını qəbul etdikdən sonra Birləşmiş Ştatların xarici siyasətinin əsas məqsədi olub. Deməli, hər şey bundan başlayır.

“Hökumətlər azlıqların dini icmalarının üzvlərinə və onların ibadət yerlərinə hücumlar, zorakılıq və dinc ifadəyə görə uzunmüddətli həbs cəzaları, transmilli repressiya və dini icmalara qarşı zorakılığa təhrik kimi sui-istifadələrə son qoymalıdırlar”, – deyən dövlət katibi əlavə edib ki, bütün dünyada dini azadlıqlara qarşı çağırışlar struktur, sistemli və köklüdür: "Ancaq nifrətin, dözümsüzlüyün və təqibin status-kvo kimi qəbulundan imtina edənlərin düşünülmüş və davamlı öhdəliyi ilə biz bir gün bütün insanların ləyaqət və bərabərliklə yaşadığı bir dünya görəcəyik".

Necə deyərlər, avazın yaxşı gəlir, oxuduğun Quran olsa. ABŞ-ın dini etiqad azadlığı indeksində adı çəkilən digər ölkələri bir kənara qoyaraq bildirək ki, bu cür fikirlərin Azərbaycanın da timsalında gündəmə gəlməsi son dərəcə cəfəng və populist mahiyyət daşımaqdadır. Çünki ölkəmizdəki dini durum, sözün əsl mənasında, dünyaya nümunədir və bununla bağlı ən müxtəlif misalları çəkmək mümkündür. Onlardan söz açıb mətləbdən uzaqlaşmaq istəməzdik. Çünki mövzumuz Birləşmiş Ştatların dini özünün xarici siyasətində alətə çevirməsidir. Yəni, Vaşinqton heç bir əndazə tanımadan bu işə girişib. Meydana elementar sual çıxır: Birləşmiş Ştatlar hansı haqla belə bir hesabat tərtib edir?

***

Əlbəttə, ABŞ hər zaman özü üçün haqq uydurmaqda pərgardır. Fikir verin, Blinken Konqresin 1998-ci ildə qəbul etdiyi akta söykənir. Sən demə, bir ölkənin ali qanunverici orqanının ortaya çıxardığı sənəd dünya üçün keçərli olmalı imiş. Absurddur və ortada çox qorxunc mənzərə var. Bu mənzərə Birləşmiş Ştatların bütün beynəlxalq hüquq prinsiplərinə zidd yanaşmasının göstəricisi olan hegemonluq iddiasının düşüncə məhsulundan başqa bir şey deyil.

Bəli, ABŞ dini azadlıqların təşviqində aparıcı rolu təmin etmək istəyir. Bu məqsədlə hələ 2013-cü ildə Dövlət Departamentinin Dini İşlər və Beynəlxalq Əlaqələr İdarəsi yaradılmışdı. O zaman İlahiyyat seminariyasının xristian etikası professoru, uelsli Şon Keysi dünya dinləri ilə iş şöbəsinin müdiri təyin edilmişdi. O, dini məsələlərdə səlahiyyətli sayılırdı və tez-tez iman və dövlət siyasətinin kəsişməsi haqqında mühazirələr oxuyurdu. Hətta Keysi bir az da lovğalanaraq deyirdi: “Mənim təyinatım onu göstərir ki, Dövlət Departamenti ABŞ-ın xarici siyasətində dinin artan əhəmiyyətini qəbul edir”.

2018-ci ildən Keysinin indiki vəzifəsini keçmiş senator Sem Braunbek tutmuşdu. Əlbəttə, o vaxt Prezident Donald Trampı insan hüquqlarının müdafiəçisi adlandırmaq olmazdı. Lakin S.Braunbek əmin idi ki, daha çox din azadlığı olarsa, terror təhlükəsi azalacaq və bu, iqtisadi artıma gətirib çıxaracaq. Maraqlıdır ki, Birləşmiş Ştatların başbilənləri bu tezisdən başqa heç nə tapa bilməyiblər və onu indi də təkrarlamaqdadırlar…

***

Qeyd edək ki, 2018-ci ildə Dövlət Departamentinin xətti ilə ABŞ dini azadlıqlarla bağlı sammitə evsahibliyini gerçəkləşdirmişdi. Bu, ölkənin tarixində ilk dini azadlıq konfransı idi və dünyanın hər yerindən rəsmilərin, dini liderlərin, hüquq müdafiəçilərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə keçirilmişdi.

Hələ 2019-cu ilin iyul ayında ABŞ Dövlət Departamentinin o zamankı katibi Mayk Pompeo ölkələrin din və ya əqidə azadlığına hörmət və dünyada azlıqların dini qruplarının üzvlərinin müdafiəsini təşviq etmək üçün Beynəlxalq Dini Azadlıq Alyansının yaradıldığını elan etmişdi. Bu məqsədlərə çatmaq üçün vasitə kimi dini azadlıqların sıxışdırıldığı ölkələrə qarşı kollektiv sanksiyaların tətbiqi əsas götürülmüşdü. Mövcud hərəkat Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsaslanan “Prinsiplər Bəyannaməsini” dəstəklədiyini açıqlamışdı.

***

Yuxarıda din məsələsinin ABŞ-ın dünya hegemonluğu üçün alət olduğunu vurğuladıq. Ancaq hələ o zaman, yəni 2018-2019-cu illərdə məlum idi ki, belə demək mümkünsə, ayının min oyunu bir armudun başındadır. Beləliklə, ABŞ Administrasiyası Rus Pravoslav Kilsəsini, tamamilə, təcrid etmək məqsədi ilə xristianlararası dialoqa və yerli pravoslav kilsələrinin münasibətlərinə fəal şəkildə müdaxilə edirdi. Bundan başqa, Vaşinqton Konstantinopol Patriarxlığı ilə əməkdaşlıq edərək, Ukrayna Pravoslav Kilsəsinin tanınması məsələsinin təbliğinə girişmişdi. O zaman M.Pompeo Ukrayna Pravoslav Kilsəsinin rəhbəri mitropolit Epifani Dumenko ilə görüşmüşdü. Tərəflər arasında "möhkəm və etibarlı əməkdaşlıq" məsələləri müzakirə olunmuşdu. ABŞ, eyni zamanda, müqəddəs Taxt-Tacla yaxınlaşmaq yolu tutaraq, Yaxın Şərqdə və Çində “xristianların təqibi problemlərini” qabartmışdı.

Bütün bunlara diqqət yetirərərkən, o cümlədən, hazırkı Rusiya – Ukrayna müharibəsini nəzərə alsaq, Birləşmiş Ştatların Dövlət Departamentinin indi açıqlamış olduğu dini etiqad azadlığı indeksinin hansı qlobal məqsədlərə hesablandığı bir daha üzə çıxmaqdadır. Görünən budur ki, Vaşinqton üçün ümumbəşəri dəyərləri qorumaq, azadlıq və demokratiya ideyalarının təbliği bəhanəsi müstəsna önəm daşımaqdadır.

***

Sonda bir daha, gələk, Azərbaycanın üzərinə. Bəli, ölkəmiz Cənubi Qafqazda lider mövqeyə sahibdir. Bu liderliyin həm də mükəmməl multikultural örnəkləri var. Bəs, nəyə görə Birləşmiş Ştatlar mövcud reallığa əhəmiyyət vermir? Çünki Azərbaycan ABŞ-ın regionla bağlı qlobal planlarında iştirak etmir, müstəqil siyasi xətt yürüdür. Buna görə də Vaşinqton ölkəmizdən, belə demək mümkünsə, dini antipod düzəltmək niyyətinə düşüb. Birləşmiş Ştatların dəst-xətti onun vaxtilə İraqda kimyəvi silah axtarmağına bənzər şeydir. Çoxsaylı insan tələfatına səbəb olmuş və Səddam Hüseyn rejiminin devrilməsi ilə nəticələnmiş İraq kampaniyasının yekununda müəyyən edilmişdi ki, ölkədə heç bir kimyəvi silah yoxdur. Bunun müqabilində isə Ağ evin, sadəcə, bir üzrxahlığı olmuşdu. Əsl dinsizlik, əqidəsizlik də elə məhz budur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Napoleon, Paşinyan və II Qaregin

(əvvəli 1-ci səhifədə)

Nəzərə alaq ki, erməni apostol kilsəsi, o cümlədən, bütün Ermənistanın katolikosu II Qaregin bütün davranışları ilə özünü Nikol Paşinyan hakimiyyətinə alternativ qismində qoymağa çalışmaqdadır. Bu tendensiya baş nazirin tərəfdarlarını o qədər hiddətləndirir ki, onlar bəzən II Qaregenin, hətta, cinsi orientasiyası ilə bağlı məsələləri önə çəkirlər, onu sosial şəbəkələrdə təhqir obyektinə çevirirlər. Məsələn, mövcud istiqamətdəki çox geniş yayılmış fikirlərin birində bildirilir ki, II Qaregin uşaqbazdır. Deməli, erməni iqtidarının təmsilçilərinə yaxın dairələr, habelə jurnalistlər, katolikosa, necə deyərlər, qurşaqdan aşağı zərbə vurmaqdan çəkinmirlər. Onun və bu şəxsin timsalında bütövlükdə dinini gözdən salmaq yolunu tuturlar.

Əlqərəz, Paşinyanın komandası bütün Ermənistanın katolikosunu sıradan çıxarmaqda israrlıdır. Onların fikrincə, ziddiyyətlər, həmin ziddiyyətlər fonundakı arzuolunmaz siyasi çalarlar ictimai həyatın sağlamlığına töhfə verə bilməz. Əksinə, bu, müxtəlif dairələr arasında formalaşmış qütbləşməni qidalandırmaqla, cəmiyyətin axarına mənfi təsir göstərir.

Məlum olduğu kimi, Ermənistanda hər yeni il öncəsi təbriki əvvəlcə ölkənin prezidenti, ardınca isə erməni apostol kilsəsinin rəhbəri edirdi. Bunun konstitusiyon əsaslarının olduğu bildirilsə də, “İctimai” televiziya məsələni özünün yayım siyasətinin müstəqilliyi ilə əsaslandırmaqdadır. Əlbəttə, belə bir əsaslandırma jurnalist təşkilatlarının təmsilçiləri üçün keçərli sayılmır: “Biz aşağıda imzası olan jurnalist təşkilatları hesab edirik ki, az qala, dövlət protokoluna çevrilmiş ənənələr yalnız ictimai rəyin öyrənilməsi və mümkün nəticələrin təhlili nəticəsində dəyişməlidir”.

Ermənistanın aparıcı jurnalist birliklərinin açıqlamasından gəlinən qənaət həm də budur ki, katolikosun mesajının




ölkədə dini sistem köhnəliyin qalığıdır və dəyişməlidir. İlk baxışdan, bu hərəkat dinə qarşı çıxmaq kimi də qiymətləndirilə bilər. Hər halda, deyimin ayrı-ayrı elementlərini görməkdəyik. Onu da nəzərə alaq ki, ABŞ Dövlət Departamenti dünyada dini etiqad azadlığı ilə bağlı hesabat hazırlayaraq, Azərbaycanı bu xüsusda dözümsüz ölkə kimi qələmə verib. Görəsən, multikultural dəyərləri ilə dünyaya nümunə olan Azərbaycanmı dözümsüzdür, yoxsa, ölkənin əsas din xadimini ələ salmaqla məşğul olan Ermənistan hakimiyyəti? Sonda məsələyə qayıdacağıq...

Əlbəttə, məsələnin dərinliyinə getmək niyyətində deyilik. Dünyanın Azərbaycana və Ermənistana yanaşmasındakı ayrı-seçkilik meyillərini bilirik. Deməli, Birləşmiş Ştatların Dövlət Departamenti yaydığı qərəzli hesabatla yenilik etmir. Ancaq N.Paşinyan, sözün əsl mənasında, yenilik etmək qərarına gəlib. Belə ki, o, 2023-cü il dekabrın 31-də Ermənistanın birinci kanalında II Qareginin yeni il təbrikinin yayımlanmasına imkan verməyib. O, Milad bayramı münasibətilə bir neçə gün əvvəlki müraciətində isə tam din xadimi kimi davranıb, Müqəddəs kitabdan seçmələr səsləndirib. Bir sözlə, göstərmək istəyib ki, ölkədə din xadimi də özüdür, rəhbər də.

Həm bununla əlaqədar, həm də II Qareginə “İctimai” televiziyada efir verilməməsi ilə bağlı Ermənistan cəmiyyətində çoxsaylı etirazlar var. Onlardan daha çox diqqət çəkəni ölkənin onadək jurnalist təşkilatının yaydıqları birgə açıqlamadır. Açıqlamada bildirilib ki, hökumətlə erməni apostol kilsəsi arasında yaranan “Şoqakat” telekanalında və İctimai Yayım Şurasının nəzdindəki “İctimai” radioda yayımlanması yaranmış problemi həll etmir, növbəti müzakirələrə səbəb olur və mövcud xüsusda ağlabatan qərarlar çıxarılmalıdır. Lakin qərar yoxdur və ortada yalnız Paşinyanın siyasi mənada gərginləşdirdiyi durum var. Elə jurnalist təşkilatlarının təmsilçiləri də bunu vurğulayır və bildirirlər ki, II Qareginə ənənəvi efir vaxtının verilməməsi hakimiyyətin reytinqinə mənfi təsir göstərməkdədir. Çünki “İctimai” televiziyanın müstəqillik illərində formalaşmış ənənəni pozmaq hüququ yoxdur.

Bəli, N.Paşinyan cəmiyyət üçün son dərəcə həssas olan ənənələrə münasibətdə ehtiyatlı olmaq niyyətindən uzaqdır və administrativ metodlarla kilsənin nüfuzunu zədələmək yolu tutmaqdadır. Bu isə istər-istəməz, ölkədəki dini durumu gərginləşdirməkdir. Ona görə sonda bir daha ABŞ Dövlət Departamentinin məlum hesabatına qayıdaq. O hesabata ki, orada Azərbaycan dini dözümsüzlük məkanı kimi göstərilirdi. Guya ki, ölkəmizdə dinə qarşı təqiblər baş alıb getməkdədir. Yaxşı olar ki, Vaşinqtonun təmsilçiləri hazırda Ermənistanda baş verən proseslərə nəzər salsınlar, düşünüb və qərara gəlsinlər ki, açıq formada ölkənin ən yüksək ranqlı din xadiminə həqarətin adı nədir? Əlbəttə, din xadimi statusundan uzaq, daim müharibə çağırışları səsləndirən, türklərə nifrət aşılayan II Qaregin hörmətə layiq deyil. Ancaq hər bir halda fakt ortadadır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Vaşinqtonun “dini azadlıq” təhdidi nəyə xidmət edir?

**ABŞ yenə də reallıqdan uzaq hesabat hazırlayıb. Bu dəfə Vaşinqton Azərbaycanda hökm sürən dini azadlıq və tolerantlıq faktlarını “nəzərə almayaraq” cəfəngiyyat uydurub. Əlbəttə, sənədin erməni mənşəli amerikalının "zəhmətinin" məhsulu olması bir başqa söhbətin mövzusudur və məsələyə qayıdacağıq. Reallıq isə budur ki, ABŞ göydən götürülmə “faktlardan” yararlanan erməni müəllifi hesabatın hazırlanmasına yaxın buraxmaqla necə bir “tərəfsiz” olduğunu göstərdi. Bu fakt ölkə üçün həqiqətlərin deyil, siyasi maraq və mənafelərin böyük əhəmiyyət daşıdığını bir daha sübuta yetirdi.**




Bəli, özünü dünyada hegemon qüvvə sayan ABŞ dini azadlıqların təşviqində də aparıcı rola iddia edir. Sual olunur: dini azadlıq məsələsi amerikalıları niyə belə yaxından maraqlandırır? Çünki Vaşinqton mövcud istiqamətdə təsir və ya təzyiq rıçağı əldə etmək istəyir. Amerikalı məmurların sırımağa çalışdıqları iddiaya görə, guya, dini etiqad azadlığı artarsa, terror təhlükəsi azalar və bu, iqtisadi artıma səbəb olar. Axı, belə gəlişi gözəl fikirlərlə kimə gəlirlər?

Təsadüfi deyil ki, hələ 2019-cu ilin iyul ayında ABŞ Dövlət Departamentinin o zamankı katibi Mayk Pompeo ölkələrin din və ya əqidə azadlığına hörmət və dünyada azlıqların dini qruplarının üzvlərinin müdafiəsini təşviq etmək üçün Beynəlxalq Dini Azadlıq Alyansının yaradıldığını elan etmişdi. Bu məqsədlərə çatmaq üçün vasitə kimi dini azadlıqların sıxışdırıldığı ölkələrə qarşı kollektiv sanksiyaların tətbiqi əsas götürülmüşdü.

Qeyd edək ki, alyansın yaradılması tarixdə ilk dəfə bir beynəlxalq koalisiyanın bütün dünyada din və azadlıq məsələsini inkişaf etdirmək üçün milli rəhbərlik səviyyəsində bir araya gəlməsini nəzərdə tuturdu. O zaman da siyasi analitiklər yaranmış vəziyyəti ABŞ və digər Qərb ölkələrinin xarici siyasət sahəsində yeni təsir vasitəsi qismində dəyərləndirmişdilər.

Əlqərəz, indi ABŞ Dövlət Departamentinə Antoni Blinken rəhbərlik edir. Görünür, bu şəxs sələfinin işinin davamında israrlıdır. İsrarlıdır və rəhbərlik etdiyi qurum dünya ölkələrində dini azadlıqların vəziyyəti ilə bağlı illik hesabatının Azərbaycana aid hissəsində əsassız, reallıqla heç bir əlaqəsi olmayan qərəzli iddialara yer verir.

Hər kəsə məlumdur ki, ümumbəşəri dəyərləri qorumaq bəhanəsi ilə ABŞ azadlıq və demokratiya ilə bağlı ideyaları təbliğ edir. Vaşinqton xarici siyasətdə dini mövzulardan istifadə etməklə, ölkələrin daxili işlərinə qarışır. Əlbəttə, buna müəssər olması qeyri-mümkündür. Nəzərə alaq ki, Azərbaycanda dini tolerantlıq hökm sürür və Bakıya qarşı belə iddiaların irəli sürülməsi, sadəcə, siyasi riyakarlıqdır.

Bu gün Azərbaycanda dini etiqad azadlığı ilə bağlı heç bir problem yoxdur. Əksinə, dini icmalara hərtərəfli dəstək göstərilir. Yəni, ABŞ-ın bir sıra ölkələr kimi, Azərbaycanın da adını dini etiqad azadlığına dair “izləmə siyahısı”na salmasının reallıqla heç bir əlaqəsi yoxdur. Alban-Udi dini icmasının sədri Robert Mobili Trend-ə açıqlamasında bildirib ki, Azərbaycan adı hər zaman onun dinindən olan şəxsləri birləşdirən dəyərdir: “Dünya ölkələri də görürlər ki, Azərbaycanda nə dini, nə milli ayrı-seçkilik var. Bizdə xristian abidələri olsun, digərləri olsun, fərqi yoxdur, hamısı qorunur, bərpa olunur”.

Yeri gəlmişkən, onu da bildirək ki, ABŞ Dövlət Departamentinin hesabatı din azadlığı ilə heç bir əlaqəsi olmayan əsassız tezislərlə doludur. Məsələn, Qubad İbadoğlunun “qondarma” ittihamlarla həbsi, 202 “siyasi” məhbus, Azərbaycanın Qarabağ ərazisi ilə bağlı münaqişədə Ermənistana qarşı “hərbi cinayətlər törətməkdə” davam etdiyi iddiası və s.

Taftalogiya elementləri ilə dolu hesabat ilə tanış olan zaman adamda elə təəssürat yaranır ki, sənədi Dövlət Departamenti yox, hansısa erməni millətçisi hazırlayıb. Məsələ ondadır ki, onu Daniella Aşbaxyanın rəhbərlik etdiyi dövlət komissiyasının ictimai xidməti ortaya çıxarıb. Bəlkə də hesabatı tərtib edənlərin rəhbərinin etnik mənsubiyyətini qabartmaq siyasi cəhətdən korrekt deyil. Amma tarixi faktlar göstərir ki, erməni hər yerdə ermənilíyini, yəni qaraya ağ demək xəstəliyini, türk düşmənçiliyi həvəsini nümayiş etdirib. D.Aşbaxyan da mövcud anlamda istisna deyil. Bu erməni qadın ABŞ-da ən böyük erməni lobbi təşkilatı olan Amerika Erməni Assambleyasının, həmçinin Livanın Los-Ancelesdəki konsulluğunun direktorlarından biri olub.

Yəni, əslində, xarici dövlətdə işlədikdən sonra D.Aşbaxyan ABŞ hökumətində xidmətə gedib və xarici siyasəti müəyyən edən materiallar tərtib edib. Bu, Amerikanın xarici təsir qanunlarına (foreign influence laws) görə qeyri-qanunidir. Belə çıxır ki, dövlət katibinin müavini Ceyms O`Brayen ABŞ Senatında açıq şəkildə Ermənistanın xeyrinə dövlət maraqlarını tapdalayandan sonra indi erməni lobbisi açıq şəkildə ABŞ-ın xarici siyasətini müəyyənləşdirir. Həqiqətən, dəhşətli durumdur.

Məsələnin maraqlı tərəflərindən biri budur ki, hesabatda Azərbaycana qarşı belə kəskin mövqe 2023-cü ildə Qarabağda lokal xarakterli antiterror tədbirləri nəticəsində yaranmış vəziyyətə əsaslanır. Bu zaman həmin ərazilərin 30 il işğal altında saxlanması və yüz minlərlə azərbaycanlının öz doğma torpağından qovulması, 60-dan artıq məscidin, dini-mədəni obyektlərin darmadağın edilməsi nəzərə alınmır.

ABŞ Ermənistanın Azərbaycan xalqının mədəni irsini, məscidlərini, qəbiristanlıqlarını dağıtmasını, təhqir etməsini “unutmaqla” bir daha siyasi riyakarlığa yol verir. Vaşinqton belə mənasız hesabat hazırlamaqla, növbəti dəfə öz qərəzini, ədalətsizliyini nümayiş etdirir. Əlbəttə, belə cızmaqaralar və dar maraqlara xidmət edən hesabatlar Azərbaycan hakimiyyəti və xalqı tərəfindən ciddi qarşılanmır. Okeanın o tayındakılar yadda saxlamalıdırlar ki, Azərbaycan dövləti bundan sonra da öz milli maraqlarına uyğun siyasət yürüdəcək və ölkədə hökm sürən dini tolerantlıq mühitini daha da möhkəmləndirəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Sülh sazişinin mətni üzərində iş birbaşa Bakı ilə İrəvan arasında aparılır

## Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Almaniyanın “Berliner Zeitung” qəzetinə müsahibə verib

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Almaniyanın “Berliner Zeitung” qəzetinə müsahibə verib.**

**– Cənab Hacıyev, “Reuters” agentliyinin dekabrın 19-da verdiyi məlumata görə, siz demisiniz ki, Ermənistanla Azərbaycan arasında münaqişə 35 ildən sonra başa çatıb. Azərbaycan hazırda “sülhün təmin olunması” strategiyasını həyata keçirir. Həmçinin sülh sazişinin imzalanmasının çətin olmadığı bildirilib. Ermənistanla sülh sazişi real olaraq nə vaxt imzalana bilər?**

– 2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra məhz Azərbaycan beynəlxalq hüququn hamılıqla tanınmış normalarına uyğun olaraq suverenlik və ərazi bütövlüyünə qarşılıqlı hörmət olunması, bir-birinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiq edilməsi və diplomatik münasibətlərin qurulmasını ehtiva edən beş əsas prinsipi təqdim etməklə Ermənistanla sülh danışıqlarının təşəbbüskarı kimi çıxış edib.

Azərbaycan regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün Ermənistanla müxtəlif məkanlarda xoşniyyətli danışıqlar aparır. Biz həqiqətən də sülh sazişinin imzalanması üçün tarixi şansın olduğuna inanırıq və bu fürsəti əldən verməməliyik. Sülh sazişinin mətni ilə bağlı əhəmiyyətli irəliləyiş əldə olunub, ancaq hələ də həllini gözləyən bir neçə məsələ mövcuddur.

Son vaxtlar hər iki ölkə müsbət gündəmi ilə dünyanı təəccübləndirməyi bacarıb. Mən Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının dekabrın 7-də yaydığı mühüm birgə açıqlamaya istinad edirəm. Bunun nəticəsində mübadilə sazişi çərçivəsində 34 hərbçi qarşılıqlı şəkildə azad edilib. Bundan başqa, Azərbaycan Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini, Ermənistan isə Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün namizədliyini dəstəkləyib. Bu, Azərbaycanın və Ermənistanın vasitəçi olmadan birbaşa ikitərəfli danışıqlar aparmağa qadir olduğunu göstərir.

**– Əgər gündəm belə müsbətdirsə, siz real olaraq sülh sazişinin nə vaxt imzalanmasını gözləyirsiniz?**

– Sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərindən və Azərbaycanın suverenliyinin tam bərpasından sonra Azərbaycanla Ermənistan arasında gərginliyin əsas mənbəyi olan Qarabağ məsələsi gündəmdən tamamilə çıxarılıb. Beləliklə, hazırda biz sülh sazişinin bağlanmasına ciddi maneə görmürük. İndi biz iki ölkə arasında son 30 ilin ən sakit günlərini müşahidə edirik. Hər iki ordu öz kazarmalarına qayıtdığı gündən hətta atışma da baş vermir. Bu yaxınlarda Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında Sankt-Peterburqda baş tutan qeyri-rəsmi görüş də müsbət məcrada keçib. Amma konkret tarix barədə danışmaq bir qədər çətindir, çünki prosesi yekunlaşdırmaq üçün Ermənistan və Azərbaycan arasında hələ də əlavə danışıqlara ehtiyac var. Düzünü desəm, mən düşünmürəm ki, hər hansı vaxt qrafiki qoyub, məhdud zaman çərçivəsində işləmək düzgün olardı.

**– Hər iki ölkə sərhədin demarkasiyası və Zəngəzur dəhlizinin yekun həlli olmadan sülh sazişi bağlamağa hazırdırmı?**

– Sərhədin delimitasiyası texniki və vaxt aparan uzun prosesdir, sülh sazişi isə çətin deyil və sadəcə olaraq, dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn norma və prinsiplərinin qarşılıqlı şəkildə qəbul olunmasına əsaslanır. Fikrimizcə, sülh sazişi sərhədin delimitasiyasından asılı olmamalıdır.

Sülh sazişi ilə sərhədin delimitasiyası və demarkasiyası barədə danışıqlar paralel getsə də, bunlar iki fərqli formatda aparılır. İndiyədək hər iki ölkənin delimitasiya üzrə komissiyaları prosesin əsaslarını müzakirə etmək üçün beş dəfə görüş keçirib. Sonuncu görüş bu ilin (2023-cü ilin – Red.) noyabrında Azərbaycan–Ermənistan sərhədində baş tutub. Bu görüş zamanı tərəflər Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin demarkasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinə dair razılaşdırma işinə başlanılması və komissiyalar arasında görüşlərin intensivləşdirilməsi barədə razılığa gəliblər. Biz bu razılaşmanı da müsbət əlamət kimi qiymətləndiririk, ən azı ona görə ki, bu, ikitərəfli formatda əldə olunub.

**– Dekabrın 6-da Prezident Əliyev Azərbaycandan Naxçıvan anklavına “asan gediş-gəliş”lə bağlı çağırış edib. Orada “yoxlamalar və müdaxilələr” olmamalıdır. Bu, Azərbaycanın legitim hüququdur. Bu, gömrük və sərhəd nəzarəti olmadan nəqliyyat əlaqəsi deməkdirmi? Bu iddianın Azərbaycanın legitim hüququ olması barədə müddəası qüvvədə olan beynəlxalq hüququn hansı müddəasına istinad edir?**

– Azərbaycanın Naxçıvan regionu 30 ildir ki, blokadadadır. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda Ermənistan vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətini təşkil etmək məqsədilə Azərbaycan Respublikasının qərb rayonları ilə onun Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyinə zəmanət vermək barədə öhdəlik götürüb. Prezident İlham Əliyev bu öhdəliyə istinad edib.

Azərbaycan Naxçıvanla lazımi əlaqənin yaradılmasında maraqlıdır, ancaq Ermənistan öhdəlik götürməsinə baxmayaraq, artıq üç ildir ki, bu prosesə mane olur. Ona görə də Azərbaycan artıq İranla onun ərazisindən keçən alternativ marşrut barədə razılığa gəlib. Biz Ermənistan tərəfinin öz öhdəliyini yerinə yetirməyə hazır olmasını və kommunikasiya marşrutlarımızı şaxələndirmək üçün hər fürsətdən istifadə etməsini gözləmək niyyətində deyilik.

**– Siz Ermənistan, Azərbaycan və Rusiya arasında imzalanmış Bəyanatın 9-cu maddəsini nəzərdə tutursunuz: “Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir”. Azərbaycan bu maddəni belə şərh edir ki, Ermənistan gömrük və sərhəd nəzarətindən imtina edəcək?**

– Sualınıza qısa cavab olaraq, bəli deyirəm. Məhz buna görə də sənəddə sərnişinlərin və yüklərin “maneəsiz” hərəkəti ifadəsi işlənir. Bu, Ermənistanın imzaladığı öhdəlikdir. Bununla belə, bir məsələyə aydınlıq gətirmək lazımdır ki, biz malların gömrük və sərhəd nəzarətindən yalnız Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına daşındığı zaman azad edilməsini gözləyirik. Ancaq mallar Azərbaycandan üçüncü ölkəyə daşındıqda, təbii ki, tətbiq olunan gömrük və sərhəd nəzarəti Ermənistan tərəfindən təmin olunacaq.

**– İstinad edilən 9-cu maddədə, həmçinin qeyd olunur: “Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir”. Bu arada Rusiya-Ermənistan münasibətləri xeyli soyuyub. Azərbaycan nöqteyi-nəzərindən, 2020-ci ildəki bənd sizin üçün hələ də aktualdırmı?**

– Mən Rusiya-Ermənistan münasibətlərini şərh etmək istəmirəm. Vurğulamaq istədiyim odur ki, ortada danılmaz konkret faktlar var. Əvvəla, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının və Avrasiya İqtisadi Birliyinin üzvüdür. İkincisi, Ermənistanın sərhədlərini Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin qoşunları qoruyur. Üçtərəfli Bəyanatda xüsusi olaraq Federal Təhlükəsizlik Xidmətinin qüvvələrinə istinad edilir. Amma burada mənim vəzifəm bölgədə sərhəd qoşunlarının müdafiəçisi kimi danışmaq deyil. Bizim narahatçılığımız ondan ibarətdir ki, biz Azərbaycan yüklərini və sərnişinlərini Ermənistanın hüquq-mühafizə orqanlarının rəhminə buraxa bilmərik. Bizim narahatlıqlarımızın əsası var. Bu il (Ötən il – red.) İrəvanda Ermənistan baş nazirinin iştirakı ilə keçirilən ağır atletika yarışında Azərbaycan Bayrağı yandırılıb. Dumanlı havada itən Azərbaycan əsgərinin Ermənistanda vəhşicəsinə döyülməsi ilə bağlı internetdə çoxlu kadrlar var.

Ancaq önəmli olan Ermənistanın həqiqətən də bu layihədə maraqlı olub-olmamasıdır. Xoşniyyətli istək olduqdan sonra texniki məsələlər yaradıcı təfəkkür vasitəsilə tapıla bilər. Velosiped icad etməyə ehtiyac yoxdur. Ermənistandan keçən marşrut İrəvanın öhdəliyidir və onlar buna əməl etməlidirlər. Başqa sözlə, “Pacta sunt servanda” (Razılaşmalar yerinə yetirilməlidir).

Beynəlxalq təcrübə, humanitar prinsiplər də Ermənistandan Naxçıvanı Azərbaycanın əsas hissəsindən blokadaya almağı dayandırmağı tələb edir. Hələlik biz Ermənistandan heç bir səy görmürük. Əksinə, Ermənistan “Sülhün kəsişməsi” layihəsinin təşəbbüskarı olmaqla, üçtərəfli Bəyanatdan irəli gələn öhdəliyindən boyun qaçırmağa və yalandan özünü regional blokadanın açılmasını fəal şəkildə dəstəkləyən tərəf kimi təqdim etməyə çalışır. Ancaq reallıqda isə regionda kommunikasiyanın açılmasına hələ də mane olan məhz Ermənistandır.

**– “Ermənistanın ucqar cənubundan keçən nəqliyyat əlaqəsi” dedikdə Ermənistan-İran sərhədi boyunca köhnə sovet marşrutunu, yoxsa daha şimalda yerləşən dəhlizi nəzərdə tutursunuz?**

– Sovet dövründə və hətta ölkələrimizin müstəqilliyinin ilk illərində istismarda olan dəmir yolu ilə keçməli olan ən qısa marşrutu nəzərdə tuturuq, bu marşrutla sonuncu yük qatarı 1992-ci ildə keçib. Ermənistan bu dəmir yolu əlaqəsini bərpa etməkdə maraqlı olduğunu desə də, onlar paralel magistralın tikintisinə qarşı çıxırlar və bunun əvəzində Azərbaycana uzun, əlverişsiz və hava şəraitindən asılı olan şimal marşrutunu təklif edirlər. Bu, bir daha Ermənistanın nəqliyyat əlaqələrini açmaq istəmədiyini nümayiş etdirir.

**– Belə bir nəqliyyat dəhlizinin Ermənistanın suverenliyini və Ermənistan-İran əlaqələrini məhdudlaşdırmasının qarşısını necə almaq fikrindəsiniz?**

– Biz Ermənistan ərazisi ilə daşımaları nə Ermənistanın suverenliyinə, nə də Ermənistan-İran əlaqələrinə təhlükə kimi görmürük. Çünki Azərbaycandan Naxçıvana - Ermənistanın ucqar cənubundan keçən nəqliyyat əlaqəsi Ermənistanla İran arasında olan ticarət yoluna təsir etməyəcək. İki marşrut bir-birinə mane olmadan kəsişir. Əgər siyasi iradə mövcuddursa, məqbul üsullar tapmaq həmişə mümkündür. “Dəhliz” termini Ermənistanı qorxutmamalıdır, çünki bu, nəqliyyat marşrutları kontekstində geniş istifadə olunur. Bu nəqliyyat əlaqəsi Ermənistanı İranla sərhədindən məhrum etməyəcək. Bu marşrut Ermənistanı iki hissəyə də bölməyəcək. Təəssüflər olsun ki, bununla bağlı xüsusən də bəzi Qərb mediasında ölkəmə qarşı geniş şər-böhtan kampaniyasının aparıldığını görürük.

**– Ermənistanın baş naziri Nikol Paşinyan Ermənistan ərazisində Azərbaycanla Naxçıvan və ya Türkiyə arasında bir neçə şərq-qərb əlaqəsinin yaradılması təklifi ilə çıxış edib. Bakının bununla bağlı mövqeyi necədir?**

– Azərbaycan beynəlxalq hüquqla tanınan əraziləri - Qarabağın və Şərqi Zəngəzurun Ermənistan tərəfindən qeyri-qanuni işğalı səbəbindən Ermənistan regionumuzun əsas enerji və kommunikasiya layihələrindən kənarda qalıb. Ermənistan uzun illər özünü təcrid vəziyyətində saxlayıb. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi çərçivəsində regional kommunikasiyaların açılması üçün müxtəlif layihələr də müzakirə oluna bilər. Ermənistan ərazisindən Naxçıvana nəqliyyat xəttinin istifadəyə verilməsi Ermənistanın Orta Dəhliz layihəsinə daxil edilməsində mühüm rol oynayacaq. Ancaq Ermənistan nəhayət ki, nə istədiyini aydın şəkildə bəyan etməlidir.

**– Gömrük və sərhəd nəzarəti olmayan Zəngəzur dəhlizinə tələbin Orta Dəhlizin reallaşmasını ləngitməsi riski mövcuddurmu? Belə bir siyasət Çindən tutmuş Avropaya qədər maraqlı tərəfləri Azərbaycana qarşı qoymaq riski yarada bilərmi?**

– Artıq üç ilə yaxındır ki, Azərbaycan Ermənistanın Naxçıvanla nəqliyyat əlaqəsini təmin etmək üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsini gözləyir. Azərbaycan asanlaşdırılmış keçidin təmin olunmasını gözləyirdi və biz Kalininqrad kimi modelləri nəzərdən keçirməyə hazırıq. Biz, həmçinin Dünya Gömrük Təşkilatını öz nou-hau və standartlarını bölüşmək üçün dəvət etmişdik. Lakin Azərbaycan heç vaxt bütün səylərini bir istiqamətdə qurmur, ona görə də biz paralel olaraq alternativ həllər üzərində işləyirik. Biz, həmçinin Bakı-Tbilisi-Qars dəmir yolunun ötürücülük qabiliyyətini ildə 5 milyon tona çatdırmaq istiqamətində işlər görürük. Biz iranlı tərəfdaşlarımızla birlikdə İran ərazisindən keçməklə Naxçıvana alternativ marşrut yaradırıq. İrəvanın bu halda yeni regional kommunikasiya layihəsindən kənarda qalması yalnız onun öz siyasətindən asılı olacaq.

Onu da deyim ki, İran ərazisindən keçən nəqliyyat layihəsinin reallaşması Ermənistandan keçən marşrutun gündəmdən çıxarılması demək deyil. Biz bu istiqamətdə Ermənistanla işləməyə hazırıq. Daha çox alternativin olması həmişə daha yaxşıdır. Ermənistan vasitəsilə Naxçıvana nəqliyyat əlaqəsi onun suverenliyinə təsir etməyəcək. Bu mövzu ətrafında yaranmış isteriya tamamilə əsassızdır.




**– Dağlıq Qarabağ münaqişəsində, beynəlxalq hüquq çərçivəsində sərhədlər bərpa edilib, lakin dərin humanitar yaralar qalmaqdadır. Avropa Şurası Parlament Assambleyası (AŞPA) Azərbaycanı Dağlıq Qarabağın etnik erməni əhalisinin geri qayıtması üçün “etimad mühiti və maddi şərait yaratmağa”, o cümlədən Azərbaycanın onları həvəsləndirməsi və onlar üçün imkanlar yaratması istiqamətində fəal addımlar atmağa çağırıb. Azərbaycan hökuməti bu çağırışa cavab olaraq hansı addımlar atmağı planlaşdırır?**

– Azərbaycanın Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinə qarşı həyata keçirdiyi 23 saatlıq antiterror tədbirlərindən dərhal sonra ölkəmiz Qarabağın erməni sakinlərinin Azərbaycan dövlətinə reinteqrasiyası üçün portal yaradıb. Bu barədə Azərbaycan Prezidentinin Administrasiyasının mətbuata yaydığı məlumatda bildirilib və həmçinin bu məsələ regional mediada geniş yer alıb.

Azərbaycan qürur hissi ilə qeyd edir ki, BMT-nin üç missiyası və Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən öz təsdiqini tapdığı kimi ildırımsürətli antiterror tədbirləri zamanı və ondan sonrakı dövrdə mülki şəxslərə qarşı zorakılıq halları qeydə alınmayıb. Azərbaycan hərbi əməliyyatların dinc əhaliyə zərər vurulmadan necə aparılmalı olduğunu bütün dünyaya nümayiş etdirib.

Başqa sözlə desək, dinc əhalinin olduğu yerdə qalması üçün hər cür şərait yaradılmışdı. Buna baxmayaraq, erməni sakinlərin əksəriyyəti Qarabağı tərk etmək qərarına gəldilər. Sadəcə olaraq, onlar Azərbaycan Bayrağı və vətəndaşlığı altında yaşamaq istəmirlər və bu, onların bölgəni tərk etmək barədə qərar vermələrinə səbəb olub, əsasən azərbaycanlılara qarşı etnik nifrətə görə. Yeri gəlmişkən, iyirmi il əvvəl Ermənistanın sabiq prezidenti Robert Köçəryan sizin istinad etdiyiniz Avropa Şurası Parlament Assambleyasındakı bəyanatında “ermənilərlə azərbaycanlılar arasında etnik uyğunsuzluqdan” danışmışdı. AŞPA rəsmiləri bəyan ediblər ki, “Avropa Şurası yarandığı gündən indiyədək heç vaxt “etnik uyğunsuzluq” ifadəsini eşitməyib.

Erməni sakinlərinin əksəriyyəti qorxurdular ki, Azərbaycan Birinci Qarabağ müharibəsi zamanı ermənilərin törətdiklərinin qisasını ala bilər, lakin bizim niyyətimiz bu deyildi. Azərbaycan heç vaxt mülki əhalini hədəfə almır. Beləliklə, Azərbaycan Laçın yolu vasitəsilə Ermənistana təhlükəsiz keçid təmin etdi. Erməni sakinlərin çox kiçik bir hissəsi Qarabağda qalmaq qərarına gəlib və hazırda onların ehtiyacları ödənilir. Reinteqrasiya portalı fəaliyyətini davam etdirir.

Eyni zamanda, Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində Ermənistandakı kompakt şəkildə yaşadıqları məskənlərindən kütləvi şəkildə qovulmuş yüz minlərlə azərbaycanlının geri qayıtmaq hüququnu rədd etməsi narahatedici məqamdır. Ermənistanın baş naziri onları “Ermənistanın milli təhlükəsizliyinə təhdid” adlandırır ki, bu da tamamilə qəbuledilməzdir. Bir tərəfdən “sülh dövrü” elan etmək, digər tərəfdən də öz tarixi vətənlərinə qayıdıb yaşamaq istəyən azərbaycanlı qaçqınları “ölkənin milli təhlükəsizliyinə təhdid” adlandırmaq olmaz.

Ermənistandan qovulmuş azərbaycanlı qaçqınları təmsil edən Qərbi Azərbaycan İcması hər zaman Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə tam hörmətlə yanaşdığını vurğulayır. Onların məqsədləri, sadəcə olaraq, Ermənistandakı doğma torpaqlarına sülh yolu ilə qayıtmaqdır.

Siz humanitar yaralar barədə qeyd etdiniz. Həqiqətən də Qarabağ münaqişəsi Azərbaycan xalqının faciəsinə çevrilmişdir. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Yüz minlərlə insanın taleyi məhv edilib. Dörd minə yaxın azərbaycanlının taleyi hələ də naməlum olaraq qalır. Azərbaycanda valideynlər var ki, itkin düşən oğullarının şəkillərini öz məzar daşlarının üzərinə həkk etməyi mənəvi təsəlli olaraq vəsiyyət edirlər. Siz özünüz də regiona səfər etmisiniz və bu işğalın Azərbaycan şəhərlərini, kəndlərini nəyə çevirdiyini görmüsünüz. Bir vaxtlar inkişaf edən şəhərlər tamamilə məhv edilib və onlar artıq mövcud deyildir. Əvəzində isə erməni işğalçıları dəqiq mina xəritələri olmadan bizə bir milyondan çox minadan ibarət ölümcül miras qoyublar. Təsəvvür edirsiniz ki, XXI əsrdə azərbaycanlılar öz suveren ərazilərində mina partlayışlarının qurbanına çevrilirlər. Hazırda azərbaycanlıların qarşısında ərazilərin minalardan təmizlənməsi, infrastrukturun bərpası, yaşayış və iş şəraitinin yaradılması və əhalinin geri qaytarılması kimi böyük bir vəzifə dayanır.

Digər humanitar yara isə mədəni irsimizin - abidələrimizin, məscidlərimizin, qəbiristanlıqlarımızın məqsədyönlü şəkildə dağıdılmasıdır. Məscidlərimiz donuzların və inəklərin saxlanılması üçün tövlə kimi istifadə edilib. Ermənistan bununla Azərbaycan xalqının izini silməyə çalışıb.

**– Dediniz ki, hər iki ölkə vasitəçisiz məhsuldar danışıqlar aparmağa qadirdir. Sizin təcrübənizdə hansı format daha effektivdir: Azərbaycan-Ermənistan danışıqları, qonşu İran, Rusiya və Türkiyə ilə 3+3 formatı, yoxsa Qərbin iştirakı ilə danışıqlar, istər ABŞ, istərsə də Aİ olsun?**

– Hər bir formatın öz üstünlükləri var və onların effektivliyini müqayisə etmək düzgün olmazdı. Müxtəlif mərhələlərdə müxtəlif formatlar bizə irəli getməyə imkan verib və biz iştirak edən bütün vasitəçilərə minnətdarıq. Məkan bizim üçün önəmli deyil, ən əsası nəticədir. Biz nəticəyönümlü danışıqların tərəfdarıyıq. Prinsipcə, biz səmimi vasitəçiliyin əleyhinə deyilik, lakin birbaşa danışıqlara üstünlük veririk. Bu gün sülh sazişinin mətni üzərində iş birbaşa olaraq Bakı ilə İrəvan arasında aparılır.

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyasının məşvərətçi səs hüquqlu üzvünün təsdiq edilməsi haqqında

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı*

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədi qeydə alınmış Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin deputatı Kamal Xaqani oğlu Cəfərov Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) məşvərətçi səs hüquqlu üzv təyin edilmiş və həmin şəxsin üzvlüyünün təsdiq edilməsi üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma apararıb, həmin şəxsin məşvərətçi səs hüquqlu üzv qismində təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 21-ci, 28.2-ci, 28.4-cü və 182.4-cü maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Kamal Xaqani oğlu Cəfərov Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Komissiyasında məşvərətçi səs hüquqlu üzvü kimi təsdiq edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## Mərkəzi Seçki Komissiyasının 2023-cü il 30 dekabr və 31 dekabr tarixli iclas protokollarının təsdiq edilməsi barədə

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2023-cü il 30 dekabr və 31 dekabr tarixli iclaslarının protokolları təsdiq edilsin.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Zahid Məhərrəm oğlu Orucun namizəd kimi qeydə alınması haqqında

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı*

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Zahid Məhərrəm oğlu Orucun namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 2023-cü il 21 dekabr tarixli 10/27 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2023-cü il dekabrın 30-da namizədin səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Zahid Məhərrəm oğlu Oruc namizəd kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Milli Cəbhə Partiyası tərəfindən irəli sürülmüş Razi Qulaməli oğlu Nurullayevin namizəd kimi qeydə alınması haqqında

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı*

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Milli Cəbhə Partiyası tərəfindən irəli sürülmüş Razi Qulaməli oğlu Nurullayevin namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 2023-cü il 21 dekabr tarixli 10/32 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2023-cü il dekabrın 31-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Milli Cəbhə Partiyası tərəfindən irəli sürülmüş Razi Qulaməli oğlu Nurullayev namizəd kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Orxan Cavanşir oğlu Qasımov 58 saylı Xaçmaz kənd, Tərlan İsmayıl qızı Məmmədova 110 saylı Balakən seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Eldar Vladimiroviç Qəmbərov 33 saylı Xətai birinci, Qalib Həbibulla oğlu Əhmədov 110 saylı Balakən seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## Mərkəzi Seçki Komissiyasının 2023-cü il 26 dekabr tarixli iclas protokolunun təsdiq edilməsi barədə

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2023-cü il 26 dekabr tarixli iclasının protokolu təsdiq edilsin.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əvəz Bəbirxan oğlu Temirxanın namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı*

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Əvəz Bəbirxan oğlu Temirxanın namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 27-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əvəz Bəbirxan oğlu Temirxanın namizədliyinin irəli sürülməsi təsdiq edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimlinin səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı*

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Mətləb Əzizulla oğlu Mütəllimli səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 27-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Bulud Yusif oğlu Həsənov Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Mətləb Əzizulla oğlu Mütəllimlinin səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Feyzullayev Fərid Adil oğlu 33 saylı Xətai birinci, Qəmbərov Eldar Vladimiroviç 36 saylı Xətai Suraxanı, Əliyev Əlddin Bahəddin oğlu 71 saylı Cəlilabad şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Abdullayeva Elvira Bəhram qızı 36 saylı Xətai – Suraxanı, Heydərov Cahangir Qubad oğlu 71 saylı Cəlilabad şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Prezident seçkilərinə hazırlıq davam edir



### Təşviqat materialları üçün ünvanlar ayrılıb

**Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən, dairə seçki komissiyasının təklifi ilə yerli icra hakimiyyəti və bələdiyyə orqanları səsvermə gününə azı 30 gün qalanadək seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlərin müəyyənləşdirilməsini təmin etməlidir. Bu müddət 2024-cü il yanvarın 8-də başa çatacaq və artıq təşviqat materialları üçün yerlər müəyyən olunub.**

### Polislər üçün yaddaş kitabçası

**2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi proqramı ardıcıl və sistemli şəkildə davam edir.**

MSK Daxili İşlər Nazirliyi ilə birgə "Polis əməkdaşları üçün yaddaş kitabçası" hazırlayıb. Qurumlararası əməkdaşlıq çərçivəsində reallaşdırılan layihənin əsas məqsədi polis əməkdaşlarının qarşıdan gələn Prezident seçkilərində xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi və məlumatlılıq səviyyəsinin yüksəldilməsidir.

Nəşrdə prezident seçkilərinin hazırlanması və keçirilməsi dövründə, seçkiqabağı təşviqat mərhələsində, səsvermə günü və rəsmi seçki sənədlərinin daşınması, mühafizə olunması proseslərində polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş xidməti vəzifələrini yerinə yetirərkən həyata keçirəcəyi tədbirlər, habelə rol və vəzifələri aydın şəkildə göstərilib.




Polis əməkdaşlarının istifadəsi üçün nəzərdə tutulan yaddaş kitabçası Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi, "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi normativ xarakterli sənədlər əsasında tərtib olunub.

"Polis əməkdaşları üçün yaddaş kitabçası" Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsində (www.msk.gov.az) də yerləşdirilib.

### 37 ölkədə 49 seçki məntəqəsi yaradılıb

**MSK-dan verilən məlumata görə, ölkədən kənarda yaşayan seçicilərin səsvermə hüququnu təmin etmək üçün 37 ölkədə 49 seçki məntəqəsi yaradılıb. Həmin məntəqələrdə xaricdə yaşayan soydaşlarımız səs verə biləcəklər.**

### 72 beynəlxalq müşahidəçi qeydiyyatdan keçib

**2024- cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərini müşahidə etmək üçün indiyə qədər 19 ölkədən 72 beynəlxalq müşahidəçi Mərkəzi Seçki Komissiyasına müraciət edib.**

Bu barədə MSK-nın sədri Məzahir Pənahov komissiyanın iclasında məlumat verib. MSK sədri müraciətlərin hamısının müsbət qarşılandığını qeyd edib.

M.Pənahov bildirib ki, ATƏT-in Demokratik Təsisat və İnsan Haqları Bürosu (DTİHB) prezident seçkilərində 37 nəfərlə, MDB Parlament Assambleyası 17 nəfərlə, Türkiyə 5 nəfərlə, MDB 9 nəfərlə, Gürcüstan Mərkəzi Seçki Komissiyası sədrinin rəhbərliyi ilə müşahidə missiyası artıq məlumatlar göndərib. Ümumilikdə, 19 ölkədən 72 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib.

Bundan başqa, MSK-da 228 yerli müşahidəçi akkreditasiyadan keçib. Bunun 92-si öz təşəbbüsü ilə olanlar, 10-u QHT nümayəndələri, 126-sı isə xüsusi icazəli YAP müşahidəçiləridir.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Ötən ilin 11 ayında ölkənin ixrac mənzərəsi

## Əvvəlki illə müqayisədə 10,5 faiz artım əldə edilib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın 2023-cü ilin dekabr sayına əsasən, keçən ilin ilin yanvar-noyabr ayları ərzində Azərbaycanın ümumi ixracı 31,5 milyard dollar, qeyri-neft sektoru üzrə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 10,5 faiz artaraq 3 milyard dollar təşkil edib. Eyni dövr ərzində yeyinti məhsulları üzrə ixrac isə 822 milyon dollara bərabər olub.**



Hesabat dövründə elektrik enerjisinin ixracı 3,1 dəfə, qara metal məmulatlarının ixracı 16,4 faiz, meyvə-tərəvəz ixracı isə 8,1faiz artıb. Keçən ilin yanvar-noyabr ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 6,4 faiz artaraq 854 milyon dollara çatıb. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,6 faiz artaraq 182 milyon dollar təşkil edib.

Hesabat ilinin 11 ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (379 milyon dollar) birinci olub. Bu siyahıda qızıl (143 milyon dollar) ikinci, pomidor (tomat) (140 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

2023-cü ilin yanvar-noyabr ayları ərzində Rusiya Federasiyasına 1 milyard dollar, Türkiyəyə 729 milyon dollar, Gürcüstana 300 milyon dollar, İsveçrə Konfederasiyasına 155 milyon dollar, Qazaxıstana isə 90 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Ötən ilin noyabr ayının qeyri-neft ixracı isə 6,2 faiz artaraq 322 milyon dollar yüksəlib. Yeyinti məhsulları üzrə ixrac 115 milyon dollar, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 17 faiz artımla 207 milyon dollar təşkil edib.

Hesabat dövrünün noyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (122 milyon dollar) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (53 milyon dollar) ikinci və Gürcüstan (33 milyon dollar) üçüncü olub. Həmin vaxt ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (45 milyon dollar) birinci, elektrik enerjisi (31 milyon dollar) ikinci və qızıl (25 milyon dollar) üçüncü olub.

"İxrac icmalı"nda, həmçinin göstərilib ki, 2023-cü ilin yanvar-dekabr ayları ərzində "Bir pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 243 milyon dollar, dekabr ayında isə 21 milyon dollar olub.

Ötən il Azərbaycan kosmik xidmətlərini də dünyaya uğurla ixrac edib. Ümumiyyətlə, son 20 il ərzində ölkəmiz digər sahələrdə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunda da mühüm nailiyyətlər əldə edib, beynəlxalq kosmik ailənin üzvü olması ilə adını tarixə yazdırıb. Respublikamız "Azerspace-1", "Azersky" və "Azerspace-2" peyklərinin səmərəli fəaliyyəti ilə dünyaya kosmik xidmətlərin ixracını yüksək səviyyədə həyata keçirib.

Ötən ili "Azersky-1" peykinin səmada naməlum yad cizimlə toqquşması nəticəsində onunla əlaqə itmişdi. Bu peykin ölkəmiz üçün əhəmiyyəti müstəsnadır. Xüsusən də 44 günlük Vətən müharibəsində qazanılan qələbədə "Azersky" vasitəsi ilə aparılan müşahidə və çəkilişlərin rolu böyük olub. Amma qısa zamanda atılan uğurlu addımlar nəticəsində İsrail şirkəti ilə yeni peykin yaradılması istiqamətində razılıq əldə edildi.

Yeri gəlmişkən, 2026-cı və 2028-ci illərdə Azərbaycanda 2 yeni peykin istehsal olunaraq orbitə buraxılacağı nəzərdə tutulub. Keçən il 74-cü Beynəlxalq Astronavtika Konqresinin Bakıda keçirilməsi də tarixi hadisəyə çevrilib. Beləliklə, Azərbaycanın Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi ikinci dəfə uğurla reallaşıb. Xatırladaq ki, birinci dəfə bu mötəbər tədbir ulu öndər Heydər Əliyevin respublikamıza ilk rəhbərliyi dövründə –1973-cü ildə gerçəkləşib.

Dünya miqyasında belə nüfuzlu konqresin yenidən Azərbaycanda reallaşdırılması ölkəmizdə kosmik sənayenin inkişafına, beynəlxalq kosmik icma və onu təmsil edən Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsinə, habelə qlobal kosmos sənayesinə daha yaxından inteqrasiyaya əvəzolunmaz imkanlar yaradacaq.

Bu gün ölkə həyatının bütün sahələrində müasir rəqəmsal texnologiyalarından geniş istifadə olunur, yeni metodlar tətbiq edilir ki, bu da iqtisadiyyatın inkişafını sürətləndirir. Eyni zamanda, respublikanın bütün nöqtələrində internet əlçatanlığı təmin olunur, sürətli internet çıxışı diqqət mərkəzində saxlanılır.

Hazırda Azərbaycan əhalisinin 85 faizi internetdən istifadə edir. Halbuki 2003-cü ildə bu rəqəm 5 faiz idi. İnternet şəbəkəsində abonentlərin sayı 2005-ci ildə 400 min nəfər olubsa, 2022-ci ildə 8,3 milyon nəfərə çatıb. Ötən ilin mart ayında ölkəmiz "Speedtest" Qlobal İndeksində mobil internetin sürətinə görə dünyanın 140 ölkəsi arasında 54-cü yerdə qərarlaşıb. Həmçinin 2022-ci ilin sonuna ümumdünya şəbəkə üzrə qlobal göstərici təxminən 65 faizə çatıb.

Azərbaycanın bu sahədəki uğurları İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın 2023-cü ilin son sayında da öz ifadəsini tapıb. İcmalda bildirilib ki, hesabat ilinin yanvar-noyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 48 ölkəsinə 18 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. Təlcə noyabr ayında isə "Azərkosmos" dünyanın 44 ölkəsinə 1,8 milyon dollar dəyərində xidmət ixrac edib.

2023-cü ilin yanvar-noyabr ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə 5 milyon dollar ilə Birləşmiş Krallıq, 4 milyon dollar ilə Lüksemburq, 1,5 milyon dollar ilə BƏƏ, 959 dollar ilə Almaniya və 676 min dollar ilə Nigeriya qərarlaşıb.

Yeri gəlmişkən, xatırladaq ki, keçən il "Onlayn Azərbaycan" layihəsi çərçivəsində regionlarda genişzolaqlı internetə çıxış imkanları daha da artırılıb, ölkə üzrə genişzolaqlı internetə çıxışı olan ev təsərrüfatlarının xüsusi çəkisi 60 faizə çatdırılıb, cari ilin sonunaisə bu rəqəmin 100 faiz olacağı proqnozlaşdırılıb.

2023-cü ildə "Azərkosmos" "SpaceX" şirkəti arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, ABŞ şirkətinin "Starlink" adlı genişzolaqlı peyk internet xidməti bu ildən Azərbaycan bazarına çıxarılacaq.

Laçında "Azconnexus" platforması üzərindən internet xidməti təmin etmək məqsədilə ilk "KA" diapazonlu antena quraşdırılması da ötən ilin mühüm hadisələrindən olub. Bu antena adıçəkilən rayon və bir sıra ətraf ərazilərdə yüksəksürətli interneti əlçatan edib.

***Vaqif BAYRAMOV***
***XQ***

# Milli iqtisadiyyatımız beynəlxalq aləmə açıqdır

## Respublikamız xarici investisiyaların 10 prioritet istiqaməti siyahısına daxildir

**"FDI Standouts Watchlist" beynəlxalq tədqiqat agentliyinin hesabatına görə, Azərbaycan ötən ili birbaşa xarici investisiyaların (BXİ) prioritet istiqamətləri siyahısında yeddinci yerdə başa vurub. Tədqiqata əsasən, respublikamızın dayanıqlı makroiqtisadi göstəriciləri ölkənin bütün dünyada BXİ üçün aparıcı istiqamətlərdən biri olmasında mühüm rol oynayıb.**



Hesabatda dünyada 50 ən böyük BXİ istiqamətinin makroiqtisadi göstəriciləri və BXİ yolları qiymətləndirilir. Bu zaman Beynəlxalq Valyuta Fondunun (BVF) monitorinq məlumatlarından istifadə olunur. Kompleks təhlilin məqsədi BXİ-nin mühüm artım sürəti ilə diqqətçəkən ölkələri aşkarlamaqdan ibarətdir. Qeyd edək ki, BVF 2024-cü ildə Azərbaycanda ümumdaxili məhsulun (ÜDM) 2,5 faiz səviyyəsində artımını proqnozlaşdırır.

Siyahının lideri investisiya artımının yüksək sürətini 2024-cü ildə də qoruyub saxlayan Kamboca olub. Ölkə yüksək iqtisadi artım sürəti, 2024-cü ildə ÜDM-in 6,1 faiz gözlənilən artımı, eləcə də Çin və Cənubi Koreya ilə uğurlu ticarət münasibətləri sayəsində siyahıya liderlik edib.

Azərbaycan, Qazaxıstan və Kambocadan başqa siyahıya həmçinin, Filippin, Keniya, İraq, Namibiya, Mərakeş, Serbiya və Hindistan daxil olub.

# Neft Fondunun vəsaitləri 56 milyard dollara yaxınlaşır

**Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) məlumatına əsasən, fondun vəsaitlərinin həcmi 2001-ci ildə 270 milyon ABŞ dolları təşkil etdiyi halda, keçən ilin sentyabrın 30-na 55 milyard 521,27 milyon dollara yüksəlib. Bunun da hamısı xarici valyutada saxlanılıb.**



ARDNF-in büdcəsinin xərc istiqamətlərini qarşılamaq məqsədilə vəsaitlərinin müəyyən hissəsi Azərbaycan manatında saxlanılır ki, bu da investisiya portfelinin tərkibinə daxil deyil. Ümumi aktivlərin həcmi ilə investisiya portfelinin həcmi arasındakı fərq məhz bu göstərilən səbəbdəndir.

2023-cü ilin yanvar-sentyabr ayları ərzində fondun vəsaitinin idarə olunmasından 2 milyard 651,1 milyon manat (1 milyard 559,5 milyon dollar) məbləğində gəlir əldə edilib.

***XQ***

# "Vətəndaşın büdcə bələdçisi"

## Maliyyəçilər əhalini maarifləndirirlər

**Maliyyə Nazirliyində Azərbaycan Respublikasının 2024-cü ilin dövlət və icmal büdcələri ilə bağlı məlumatları özündə birləşdirən "Vətəndaşın büdcə bələdçisi" hazırlanaraq qurumun rəsmi internet səhifəsində yerləşdirilib.**




Nazirliyin bununla bağlı məlumatına görə, hər il ənənəvi olaraq hazırlanan bələdçidə dövlət və icmal büdcələrin əsas parametrləri, büdcə gəlirlərinin formalaşma mənbələri və xərclərin istiqamətləri barədə əsas məlumatlar əks olunub.

Vətəndaşların ixtiyarına verilən bələdçidə 2024-cü ildə hökumətin həyata keçirəcəyi sosial-iqtisadi layihələr, həmçinin ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi, işğaldan azad olunan ərazilərdə sürətli bərpa və yenidənqurma işlərinin davam etdirilməsi, iqtisadi inkişafın stimullaşdırılması, əhalinin sosial müdafiəsinin reallaşdırılması, təhsil, səhiyyə xərcləri və dövlətin əsas vəzifə və funksiyalarının gerçəkləşdirilməsi üçün yaradılan maliyyə təminatı barədə məlumatlar əldə etmək olar.

Hazırlanmış bu nəşr vətəndaşlara büdcə sahəsində bələdçilik edəcək, büdcənin daha asan və aydın şəkildə başa düşülməsində yardımçı olacaqdır.

# Sahibkarlıq sahəsində yoxlamalar 1 il də dayandırılıb

**Prezident İlham Əliyev bununla bağlı "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında qanunda dəyişiklik edilməsi barədə" Qanunu imzalayıb. Sənəddə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddəti 2025-ci il yanvarın 1-nə qədər uzadılıb.**

Qeyd edək ki, sahibkarlıq sahəsində yoxlamaların dayandırılması müddəti 2024-cü il yanvarın 1-də bitirdi.

Yaxın 1 ildə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Həmin yoxlamalar da müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi məhdudiyyət nəzərə alınmaqla aparılır.

Qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Baş Prokurorluğun apardığı yoxlamalara şamil edilmir. Sahibkarlar bu qanunun tələbləri pozulmaqla həyata keçirilən yoxlamalardan müvafiq icra hakimiyyəti və prokurorluq orqanlarına, həmçinin inzibati və məhkəmə qaydasında şikayət verə bilər.

***XQ***

# Dövlətin əli kəndin üstündədir

## Bunun nəticəsidir ki, son 10 ildə məhsul istehsalı 50 faiz çoxalıb

**Son illər Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər digər sahələr kimi, aqrar bölmənin də inkişafı üçün əlverişli imkanlar yaradıb. Onu da deyək ki, hazırda əhalisinin təqribən yarısının bölgələrdə yaşadığı Azərbaycanda aqrar sahənin inkişaf etdirilməsi daxili bazarın mühüm kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi ilə yanaşı, ölkənin ərzaq təhlükəsizliyinin təminatına və ixracın strukturunda qeyri-neft mallarının xüsusi çəkisinin artmasına səbəb olub. Məhz bunun nəticəsidir ki, kənd təsərrüfatı getdikcə ölkə iqtisadiyyatının prioritet sahələrindən birinə çevrilməkdədir.**



Ötən müddətdə kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorun inkişafını ləngidən problemlərin həllinə sistemli və kompleks yanaşılması, dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunması müsbət nəticələr verir. Hökumətin bu sahəyə xüsusi diqqət və qayğısı, eləcə də dövlətin həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı tədbirləri aqrar sektorda təşəbbüskarlığa geniş meydan açır. Bütün bunlar kənd təsərrrüfatının dinamik inkişafını təmin etməklə yanaşı, ümumi daxili məhsulda qeyri-neft sektorunun payının artmasına imkan yaradır.

Elə son 10 il ərzində Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalının, təqribən, 50 faiz artması da bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir. Statistik məlumatlara əsasən, son illər ölkədə bitkiçilik məhsullarının istehsalında 53 faiz, heyvandarlıq məhsullarının istehsalında isə 42,5 faiz artım qeydə alınıb. Bu da kənd təsərrüfatı və ərzaq məhsullarının ixracının təqribən 30 faiz artmasına imkan yaradıb.

Bu baxımdan yola saldığımız 2023-cü ili də Azərbaycanın kənd təsərrüfatı sahəsi üçün uğurlu hesab etmək olar. Hər şeydən əvvəl qeyd edək ki, dövlətin prioritet elan etdiyi ərzaq təhlükəsizliyi ötən ildə də diqqət mərkəzində saxlanılıb. Bu baxımdan hökumətin ərzaqlıq buğda istehsalçılarının aldığı kreditlərə dövlət zəmanəti verməsini, eləcə də faiz subsidiyası ödəməklə bağlı qərarını xüsusi qeyd etmək lazımdır.

Ölkə Prezidenti İlham Əliyevin bu məqsədlə "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 19 dekabr 2018-ci il tarixli fərmanında dəyişiklik etməsi və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə imzaladığı fərman müstəsna əhəmiyyət daşıyır.

2023-cü ildə Azərbaycanda bir ton ərzaqlıq buğdanın dövlət tədarük qiyməti 2022-ci illə müqayisədə 22,4 faiz az – 450 manat müəyyənləşdirilib. Əvəzində fermerlərdən alınan şəkər çuğundurunun qiyməti artırılıb. "Azərsun Holdinq" MMC-yə məxsus "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC 2023-2024-cü təsərrüfat ilində qışlıq və yazlıq mövsümü üzrə şəkər çuğundurunun hər tonunu şəkərlilik faizinə uyğun olaraq 4 manat baha – 485 manata almağa qərar verib.

Yola saldığımız ildə ölkənin aqrar sektoru üçün mühüm hadisələrdən biri də Nazirlər Kabineti tərəfindən kənd təsərrüfatının siyahıya alınmasına hazırlıq və onun həyata keçirilməsi haqqında qəbul etdiyi qərarla bağlıdır. Belə ki, Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, siyahıyaalınma 2025-ci il iyulun 15-dən avqustun 15-nə qədər, kənd təsərrüfatı istehsalı ilə məşğul olan hüquqi şəxslər tərəfindən siyahıyaalma vərəqələrinin Dövlət Statistika Komitəsinin elektron informasiya sistemində real vaxt rejimində doldurulması yolu ilə, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə isə siyahıyaalmaya cəlb ediləcək şəxslər (sayıcılar) tərəfindən planşet tipli kompüterlərdən istifadə olunmaqla sorğu yolu ilə baş tutacaq.

Ölkəmizdə 3 il əvvəl tətbiqinə başlanılmış aqrar sığortanın uğurlu nəticələri ilbəil artır. Aqrar sektorda mühüm stimullaşdırıcı tədbir kimi getdikcə daha çox maraq kəsb edən bu sahənin əhatə dairəsi ötən il bir qədər də genişləndirilib. Məhz bunun nəticəsidir ki, il ərzində Aqrar Sığorta Fondu tərəfindən fermerlərə verilən sığorta ödənişləri rekord həddə çatıb. Ümumilikdə, ötən il fermerlərin fonddan aldıqları sığorta ödənişləri 4 milyon manat təşkil edib ki, bu da 2021-2022-ci illərlə müqayisədə təxminən 2 dəfə çoxdur.

2023-cü ildə kənd təsərrüfatının yüksək ixtisaslı kadrlarla təminatının artırılması istiqamətində də tədbirlər də davam etdirilib. Bu baxımdan ölkədə təhsil sahəsində aparılan islahatların tərkib hissəsi olaraq Nazirlər Kabinetinin Azərbaycan Dövlət Aqrar Universitetinin Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində publik hüquqi şəxsə çevrilməsi ilə yenidən təşkil edilməsi ilə bağlı qərarını qeyd etmək olar. Bundan əlavə, BMT-in Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin dəstəyi ilə ADA Universitetində kənd təsərrüfatı və qida elmi fakültəsinin açılmasının da aqrar sahənin kadr təminatının yaxşılaşdırılmasına mühüm töhfə verəcəyi şəksizdir.

Bu ildən isə Azərbaycanda yem və yem əlavələrinin satışı üzrə dövriyyələr daha 3 il müddətinə əlavə dəyər vergisindən (ƏDV) azad edilib. Bununla bağlı Vergi Məcəlləsinə dəyişiklik edilib. Xatırladaq ki, Azərbaycanda siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələrə tətbiq edilən ƏDV-dən azadetmənin müddəti 2027-ci il yanvarın 1-nə kimi davam edəcək.

Məlum olduğu kimi, ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı, satışı vergidən azaddır və bununla bağlı Vergi Məcəlləsində ayrıca maddələrdə izahlar verilib. Bununla belə, bütün kənd təsərrüfatı məhsullarının sonrakı mərhələdə dövriyyəsi, yəni tədarükü və ticarəti tam olaraq vergidən azad deyil. 2020-ci il yanvarın 1-dən heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələr tam olaraq ƏDV-dən azad edilib. Həmin malların siyahısı Nazirlər Kabinetinin 30 iyun 2022-ci il tarixli 251 nömrəli qərarı ilə təsdiq eidlib. Bu siyahıya yemlərin tərkibinə daxil olan qüvvəli, qaba və sulu şirəli yemlər, bitki və heyvan mənşəli yemlər, heyvandarlıqda və quşçuluqda istifadə olunan müəyyən amin turşuları, həmçinin, yem əlavəsi, müxtəlif təyinatlı minerallar, vitaminlər və digər maddələr daxil edilib.

Ekspertlər hesab edirlər ki, artıq bu cür məhsulların bütün zəncirlər üzrə dövriyyəsinin ƏDV-dən azad olunması heyvandarlığın inkişafına öz təsirini göstərəcək. Eyni zamanda, mal ətinin, eləcə də digər heydandarlıq və quşçuluq məhsullarının dövriyyəsinə edilən vergi güzəştləri son istehlakçının həmin məhsulu aşağı dəyərlə əldə etməsinə səbəb olacaq. Bütövlükdə isə, heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələrin tam olaraq ƏDV-dən azad edilməsi, ümumilikdə, kənd təsərrüfatı sektorunda qiymət artımının qarşısını almağa imkan yaradacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Təmiz ətraf mühit gələcəyə keçidin xilas körpüsüdür

**Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının Prezidenti müəyyən edilib. Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.**

Sərəncamla müəyyən edilmiş Prezidentə (President-Designate) Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasına və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasına hazırlıq işlərinin aparılması və sədrliyin həyata keçirilməsi üçün məsul nümayəndələrdən ibarət heyətin formalaşdırılması səlahiyyəti verilib.

Sərəncamda qeyd olunub ki, Azərbaycan Respublikası ətraf mühitin qorunmasına, iqlim dəyişmələrinin qarşısının alınmasına xüsusi əhəmiyyət verir. Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonası elan olunması, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin təzahürüdür.

İqlim dəyişmələrinin qarşısının alınması sahəsində Azərbaycanın həyata keçirdiyi fəaliyyət beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Məhz bu səbəbdən, iştirakçıların sayına və səviyyəsinə, müzakirəyə çıxarılan məsələlərin aktuallığına görə dünyada ən mötəbər tədbirlərdən biri hesab edilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) dünya ölkələrinin yekdil qərarı ilə 2024-cü ildə Azərbaycanda keçiriləcək.

Sənəddə ölkəmizin beynəlxalq ictimaiyyətin ona böyük hörmət və etimadının göstəricisi olan bu nüfuzlu sessiyanın yüksək səviyyədə təşkil edilməsi, ölkəmiz və bəşəriyyət üçün uğurlu nəticələrlə yekunlaşması naminə bütün zəruri tədbirləri görəcəyi də diqqətə çatdırılıb.

Xatırladaq ki, Şərqi Avropa Regional Qrupu dekabrın 11-də Dubayda keçirilən COP28 konfransında rəsmən elan olunan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına (COP29) Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi etmək üçün Azərbaycanı seçib. Respublikamızda COP29 konfransının keçirilməsi 2024-cü ilin noyabr ayına planlaşdırılıb.

Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası üzrə Tərəf Dövlətlərin 29-cu Konfransı kimi yüksək səviyyəli beynəlxalq tədbirə evsahibliyi etməsi respublikamızın beynəlxalq aləmdə artan nüfuzunun, müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların Bakıya olan marağının parlaq ifadəsidir. Digər tərəfdən, Azərbaycanda belə bir nüfuzlu tədbirin uğurla reallaşacağını zəruri infrastrukturun mövcudluğu, habelə rəsmi Bakının beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı zəngin təcrübəsi şərtləndirir.

Prezident İlham Əliyev müvafiq sərəncam imzalayaraq 2024-cü ili Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi də ölkəmizin bu məsələyə mühüm önəm verməsindən irəli gəlir. Dövlət başçısının həmin sərəncamında bir daha qeyd olunur ki, "yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir.

Sənəddə o da vurğulanır ki, COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Məhz bütün bunlar nəzərə alınaraq iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilir.

Azərbaycan "yaşıl enerji"nin reallaşdırılması ilə bağlı 2023-cü ildə gerçəkləşdirilən bir sıra tədbirlərlə yadda qalıb. Bu dövrdə Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında "Dənizdə 1,5 QVt-dək külək layihəsinin həyata keçirilməsinə dair İcra Müqaviləsi", "Quruda 1 QVt külək stansiyasının yaradılmasına dair İcra Müqaviləsi" və "Azərbaycan Respublikasında enerji saxlanc sistemlərinin inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu" imzalanıb. Ekspertlər tərəfindən adları çəkilən həmin sənədlər Azərbaycanın "yaşıl artım ölkəsi" və "yaşıl enerji" təchizatçısı kimi inkişafına mühüm təsir göstərəcəyi kimi dəyərləndirilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin ötən ilin yanvar ayında Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) işgüzar səfəri çərçivəsində Əbu-Dabi şəhərində SOCAR ilə BƏƏ-nin "Masdar" şirkəti arasında Azərbaycanda 2 QVt gücündə "Dənizdə külək və hidrogen layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişi", həmçinin "1QVt gücündə Günəş Fotovoltaik və 1 QVt gücündə Quruda Külək layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişi" imzalanıb. Bu sazişlər respublikamızla BƏƏ arasında əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə, habelə Azərbaycanda istixana qazı emissiyalarının azaldılmasına, bərpaolunan enerji mənbələrinin və ölkənin davamlı iqtisadi inkişafına töhfə verəcək.

Bərpaolunan enerji sahəsində "Masdar" şirkəti hazırda ölkəmizdə 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyası layihəsini icra edir. Stansiyanın hər il yarım milyard kilovat/saat elektrik enerjisi istehsal edəcəyi və atmosferə atılan tullantıların ildə 200 min tondan çox azaldılmasına imkan yaradacağı nəzərdə tutulur. Yeri gəlmişkən, artıq ötən il "Qaradağ" GES-də ilk günəş paneli də quraşdırılıb. 2023-cü ildə karbon emissiyasının azaldılması məqsədilə SOCAR ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı (JBIC) arasında "Dekarbonizasiya sahəsində əməkdaşlığın təşviqinə dair Anlaşma Memorandumu" da imzalanıb.

Azərbaycan, eyni zamanda, "China Gezhouba Group Overseas Investment" şirkəti ilə 2 QVt gücündə bərpaolunan enerji layihələri üzrə əməkdaşlıq edəcək. Belə ki, Çin şirkəti elektrik enerjisinin yüksək gərginlikli sabit cərəyan kabelləri vasitəsilə uzaq məsafələrə ötürülməsi sahəsində təcrübə mübadiləsini həyata keçirəcək.

Azərbaycanın Energetika Nazirliyi ilə "China Gezhouba Group Overseas Investment" şirkəti arasında imzalanan Anlaşma Memorandumu ölkədə sənaye miqyaslı günəş enerjisi, quruda və dənizdə külək enerjisi, enerji saxlama və inteqrasiya olunmuş "ağıllı enerji" sistemləri, həmçinin "yaşıl hidrogen" istehsalı layihələrinə investisiya qoyuluşu üçün potensialın qiymətləndirilməsi üzrə əməkdaşlığı ehtiva edir. Sənəd, həmçinin şirkət tərəfindən layihələrin şəbəkəyə qoşulma imkanlarının tədqiqi, ətraf mühitə təsirin qiymətləndirilməsi, geoloji və topoqrafik tədqiqatların aparılmasını da nəzərdə tutur.

Azərbaycanın işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə yanaşı, Naxçıvan da "yaşıl enerji zonası" elan olunub. Bu ərazilərdə bərpaolunan enerji mənbələri üzrə ümumi texniki potensial 15 QVt səviyyəsində hesablanıb. Respublikamızın düşməndən təmizlənən ərazilərində artıq 53,6 MVt gücündə 11 kiçik su elektrik stansiyasının (KSES) istismarına başlanıb, 70,5 MVt gücündə 7 KSES isə hazırda inşa olunur və ümumi gücü 76,8 MVt olan daha 9 stansiyanın tikintisinə başlanılacağı da planlaşdırılıb.

Cəbrayılda 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyası, Araz çayı üzərində 140 MVt gücündə "Xudafərin" və "Qız qalası" hidroqovşaqları və su elektrik stansiyaları da Şərqi Zəngəzurun "yaşıl inkişafı"na öz töhfəsini verəcək.

Əlverişli günəş radiasiyasına malik Naxçıvanın da artıq "yaşıl enerji zonası"nın inkişafı konsepsiyası hazırlanıb. Külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin xarici investisiya hesabına yaradılması və onun ən azı 1000 MVt-nın Türkiyə və Avropa istiqamətində ixracı strateji hədəf kimi nəzərdə tutulub.

Naxçıvanda Fransanın "Total Energies" və yerli "Nobel Energy Management" şirkətləri ilə ümumi gücü 900 MVt olan günəş və külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədlərinin imzalanması isə respublikamızın "yaşıl enerji zonası" kimi inkişafını sürətləndirəcək. Bu güclərin 650 MVt-ı məhz Naxçıvanda yaradılacaq. Güclərin gerçəkləşdirilməsi həm Naxçıvanı, həm də Şərqi Zəngəzuru "yaşıl enerji"nin istehsal və istehlakı ilə bərabər, ixracının da mənbə və marşrutuna çevirəcək.




Energetika Nazirliyi "Nobel Energy Management" şirkəti ilə Naxçıvanda 400 MVt gücündə günəş elektrik stansiyasının tikintisi və istehsal ediləcək elektrik enerjisinin Türkiyəyə ixracı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu da imzalayıb.

Adıçəkilən nazirlik və "TotalEnergies" şirkəti arasında isə 250 MVt gücündə quruda külək, Naxçıvan Muxtar Respublikasında 250 MVt gücündə günəş elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Beləliklə, "yaşıl enerji" layihələrinin reallaşdırılması yaxın illərdə Naxçıvanı enerji ixracatçısına çevirəcək və muxtar respublikanın strateji əhəmiyyətini daha da artıracaq. Belə ki, külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun ən azı 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığın Naxçıvanı "yaşıl enerji"nin istehsalı–ixracının da mənbəyi və marşrutuna çevirəcək.

Naxçıvan üzərindən "Türkiyə–Azərbaycan qarşılıqlı əlaqə layihəsi"nin icrası ilə əlaqədar 2023-2025-ci illərdə "TEİAŞ" və "Azərenerji" ASC-nin birgə həyata keçirəcəyi Yol Xəritəsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və "A-Z Czech Engineering" MMC arasında Azərbaycan ərazisində bərpaedilən enerji mənbələri üzrə layihələrin icrası, həmçinin Naxçıvanda gücü 500 MVt-a qədər olan günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin Türkiyəyə ixracı üçün ötürücü şəbəkənin qurulması imkanlarının araşdırılması üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və "ACWA Power" şirkəti arasında Batareya Enerji Saxlama Sistemi (BESS) layihəsi və 200 MVt quruda külək layihəsi üçün tədbirlər təqvimi (Yol xəritəsi)" imzalanıb.

Onu da qeyd edək ki, Türkiyənin "Baltech Enerji" şirkəti Qarabağda 100 MVt külək elektrik stansiyası, Naxçıvanda isə 50 MVt gücündə günəş elektrik stansiyası üzrə əməkdaşlıq təklifi irəli sürüb.

***V.BAYRAMOV***
***XQ***

# "Odlar yurdu" COP29 prizmasında

## Dünya Vətənimizi yaşıl libasda görəcək

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı 100-dən çox dövlətin nümayəndəsinin iştirakına və bir çox göstəricilərinə görə kifayət qədər yüksək səviyyəli tədbir hesab olunur. İqlim dəyişmələrinə həsr edilmiş sonuncu COP28 konfransı bizim üçün həm də ona görə əlamətdar oldu ki, orada növbəti tədbirin 2024-cü ildə məhz Azərbaycanda keçirilməsi ilə bağlı çox ciddi qərar qəbul olundu.**

Bu fikirləri "Avrasiya miqrasiya təşəbbüsləri platforması" İctimai Birliyinin sədri, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Azər Allahverənov COP29-un ölkəmizdə keçirilməsinin siyasi əhəmiyyəti barədə danışarkən səsləndirib. Onun dediyinə görə, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası Azərbaycan üçün siyasi baxımdan önəm daşıyır. Bununla yanaşı, tədbiri həm enerji sektorunun, həm də miqrasiya sahələrinin inkişafı baxımından vacib tədbir kimi dəyərləndirən birlik sədri deyib ki, iqlim dəyişmələri ilə bağlı konfransların, sessiyaların keçirildiyi dövlətlərdə sonrakı mərhələlərdə məhz həmin sahələrdə çox ciddi irəliləyişləri müşahidə etmək mümkündür.



A.Allahverənovun sözlərinə görə, BMT-nin böyük güclərini özündə ehtiva edən dövlətlərin təmsil olunduğu konfrans qərar verən tərəflərin həmin tədbirin keçiriləcəyi şəhərə və ya dövlətə göstərdiyi etimadın bariz nümunəsidir. COP29-un ölkəmizdə keçirilməsinə qərar verilməsi də böyük etimadın göstəricisi olmaqla ölkəmizin qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş mövqeyini təsdiqləyir.

Konfransın beynəlxalq münasibətlər sistemində ölkəmizin rolunun daha da inkişafına və onun yerinin güclənməsinə gətirib çıxaracağına əminliyini bildirən ictimai birliyin sədri qeyd edib ki, Azərbaycanda, yəni Cənubi Qafqaz bölgəsində "yaşıl" ərazinin yaradılması önəmlidir. "Vaxtilə ölkəmizin beşdəbir hissəsi işğal altında qalanda Ermənistan orada boz zona yaratmışdı. Bu zonada işğalçılıq siyasəti nəticəsində ölkəmizin florası və faunası məhv edilmişdi. Eyni zamanda, Azərbaycanın mədəni irsi, mədəni abidələri, şəhər, qəsəbə, kəndləri dağıdılıb, kənd təsərrüfatı ziyan görmüşdü. Arıq torpaqlarımız 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunub. Azərbaycanın həmin ərazilərdə alternativ, yaşıl enerjilər, karbohidrogen və karbon qazlarından azad olan seqmentlər üzrə inkişaf etdirilməsi yanaşmasının ortaya qoyulması faktiki olaraq yaşıl enerjiyə yeni münasibətin sərgilənməsindən və həmin sahədə siyasətin formalaşmasından xəbər verir. Məhz bu səbəbdən də vaxtilə boz zona olan əraziləri "yaşıl" zonaya çevirmək niyyətində olan Azərbaycan üçün COP 29-a ev sahibliyi etməsi olduqca vacibdir", – deyə o əlavə edib.

Azər Allahverənovun fikrincə, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda elan olunmuş "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilməsi nəticəsində ölkəmiz özünün ən müsbət tərəflərini dünyaya çatdıra biləcək. Birlik sədri, həmçinin deyib ki, ölkəmiz həmin istiqamətlər üzrə yaxın bir neçə 10 illiyə hesablanmış yeni siyasətin formalaşdırılması üçün də çox əlverişli imkanlar qazanacaq.

***XQ***

# Ölkəmiz dekarbonizasiya ideyalarına sadiqdir



**COP29 konfransına ev sahibliyinin Azərbaycana həvalə olunması ölkənin iqlim gündəliyinə və dekarbonizasiya planlarına sadiqliyini əks etdirir. Bunu Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Avropa, Latın Amerikası və Karib hövzəsi üzrə vitse-prezidenti Alfonso Qarsia Mora deyib. Onun sözlərinə görə, Azərbaycanın milli səviyyədə müəyyən edilən töhfəsi beynəlxalq dəstəklə 2050-ci ilədək tullantıların 1990-cı illə müqayisədə 40 faizədək azaldılmasını nəzərdə tutur.**

İqlim dəyişikliyinin inkişaf etməkdə olan ölkələrdə insanların həyatına ciddi təsir göstərdiyini və yoxsulluqla mübarizə səylərinə maneçilik törətdiyini vurğulayan vitse-prezident Azərbaycanın da bu baxımdan istisna olmadığını bildirib. O deyib ki, Dünya Bankı Qrupu tərəfindən hazırlanmış Azərbaycana dair İqlim və İnkişaf Hesabatına əsasən, 2060-cı ilədək 44 milyard ABŞ dolları dəyərində investisiyalar lazımdır. "Hesabatımıza əsasən, iqlim hədəfləri "təmiz" enerjiyə qoyulan investisiyalar təcili artırılaraq, 2030-cu ilədək təqribən 1 milyard dollara çatdırılmadan əldə oluna bilməz. Lazımi investisiyaların mühüm hissəsi kommersiya və özəl sektor tərəfindən qoyulmalıdır" – deyə IFC-nin vitse-prezidenti deyib.

Dünya Bankının enerji sektorunun idarə olunmasına yardım proqramının təhlilini xatırladan Alfonso Qarsia Mora Azərbaycanın dənizdə külək enerjisi potensialının 157 qiqavat olaraq qiymətləndirildiyini diqqətə çatdırıb. Onun fikrincə, bu, ölkənin hazırda təqribən 8 qiqavat olan ümumi quraşdırılmış gücü ilə müqayisədə çox böyük rəqəmdir. Bununla yanaşı o qeyd edib ki, Azərbaycanın Energetika Nazirliyi, Dünya Bankı və IFC tərəfindən dərc olunmuş dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsi göstərir ki, ölkə 2040-cı ilədək 7 qiqavat dənizdə külək enerjisinin quraşdırılması üçün potensiala malikdir. "Bu külək enerjisindən istifadə tam məşğulluq ekvivalentində 69 min ildən çox iş və 7 milyard dollara qədər yerli ümumi əlavə dəyər yaratmağa imkan verə bilər. Azərbaycanla dənizdə külək enerjisi potensialının inkişafında əməkdaşlıq və ölkəyə özəl investisiyalar cəlb etmək hesabına yeni səviyyəyə nail olmaqda kömək göstərməkdə əməkdaşlıq üçün bütün imkanlarımız var. Dünya Bankı hökumətlə dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsinin reallaşdırılması, bu sahənin inkişafına təşəbbüs göstərilməsi və ölkəyə tərtibatçılarla özəl investorların cəlb olunması üzərində çalışır", – deyə Mora əlavə edib.

***XQ***

# Qlobal ekoloji məclisə hazırlıq start götürüb

**Prezident İlham Əliyevin sədrliyi ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-la bağlı bu ilin dekabrın 15-də keçirilən müşavirədən irəli gələn məsələlərlə bağlı İqtisadiyyat Nazirliyində videokonfrans keçirilib.**

Nazirliyin məlumatına görə, tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf və nazirliyin struktur bölmələrinin rəhbərləri iştirak ediblər. Videokonfransda SOCAR-ın hazırladığı COP-la bağlı nümunəvi beynəlxalq təcrübəyə dair təqdimat nümayiş olunub. COP-un ev sahibi ölkələrə iqlim hədəfləri ilə bağlı verdiyi üstünlük, həmçinin COP28-in fokus sahələri, dekarbonizasiya gözləntiləri barədə məlumat verilib.

Qeyd olunub ki, 2024-cü ildə ölkəmizdə keçiriləcək COP29 dünyanın ən aktual bəşəri problemlərinin müzakirə olunduğu mühüm beynəlxalq platformadır. Bu tədbirin Azərbaycanda keçirilməsi böyük etimadın göstəricisi olmaqla, ölkəmizin qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş mövqeyini təsdiqləyir.

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə öz töhfəsini verir. SOCAR-ın COP28-də metan tullantılarının sıfıra endirilməsi ilə bağlı könüllü öhdəlik götürməsi ölkəmizin iqlim problemlərinə həssaslığının təzahürüdür.

Qeyd edək ki, "Yaşıl iqtisadiyyata keçid" və "yaşıl enerji" təchizatçısına çevrilmək Azərbaycanın iqtisadi siyasətinin prioritetlərindəndir. Dövlət başçısının müvafiq sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də bu istiqamətdə təşəbbüsləri stimullaşdıracaq.

***XQ***

# “Emmanuel Makron bankaya düşmüş milçəyə bənzəyir”

## Ekspertlər Fransanın tənəzzülünün 2024-cü ildə daha da dərinləşəcəyini proqnozlaşdırırlar



**Fransa prezidenti seçildiyi 2017-ci ildən etibarən Azərbaycana qarşı əsassız hücumları həyatının, necə deyərlər, qayəsinə çevirən Emmanuel Makron ölkəsində yenidən tənqid hədəfinə tuş gəlib. Bu dəfə o, Fransada alkoqoldan imtinanı nəzərdə tutan və şərti olaraq, “Quru Yanvar” adı verilən kampaniyaya töhfə verməməkdə, onu pozmaqda və şərab lobbisinə himayədarlıq etməkdə suçlanır.**

Qeyd edək ki, “Quru Yanvar” alkoqoldan imtinanı nəzərdə tutan ictimai kampaniyadır. İlk dəfə 2014-cü ildə Böyük Britaniyada elan olunan kampaniya yanvar ayının 1-dən başlanır və 31-dək davam edir. Kampaniya sağlam həyat tərzinin təbliğini nəzərdə tutur. Onun İsveçrə, Almaniya, Norveç, İslandiya, Niderland, ABŞ və Fransada rəsmi tərəfdaşları var. Kampaniya bir ay davam etsə də, əslində, alkoqoldan tam, bu mümkün olmadıqda isə qismən imtinanı vərdiş halına gətirməyi hədəfləyir. “Quru Yanvar” kampaniyası Fransada 2020-ci ildən etibarən hər il keçirilir.

Alkoqoldan asılılıqla mübarizə sahəsində ixtisaslaşmış 50 fransız mütəxəssis bu həftə açıq məktub yazaraq, Yeni il bayramından sonra kampaniyaya dövlət dəstəyinin olmamasından şikayətləniblər. Xüsusilə, Prezident Makron “Quru Yanvar”a öz töhfəsini verməməkdə və şərab lobbisinə güzəştə getməkdə ittiham olunub. “Bu, hökumətin alkoqolizmə qarşı ardıcıl və qətiyyətli mübarizə aparacağına olan inamımızı ciddi şəkildə sarsıdır”, – deyə fransız həkimlər bildirirlər.

Sağlamlıq keşikçiləri “Le Monde” qəzetinə ünvanladıqları məktubda bildiriblər ki, “Quru Yanvar” Böyük Britaniyada ilk dəfə təqdim olunduqdan sonra populyar ictimai tədbirə çevrilib. Makron hökumətinin etinasızlığının əksinə olaraq, böyük müvəffəqiyyət qazanıb. Bəzi fransız nazirlər isə bir ay tam ayıq olmaq çağırışından uzaqlaşaraq, açıq kampaniyadan çox mötədilliyi təşviq etməyi üstün tutduqlarını bildiriblər. Kənd təsərrüfatı naziri Mark Fesneau isə bir qədər də irəli gedərək Fransada spirt istehlakının ümumi azalması (son yarım əsrdə 70 faiz və təkcə keçən il 7-10 faiz azalma) fonunda “Quru Yanvar” kampaniyasının yersiz və əhəmiyyətsiz olduğunu bildirib: “Fransızlara kimsə tərəfindən dərs verilməsinə ehtiyac olduğunu düşünmürəm. İnsanlar nə yeməli, nə içməli olduqlarını, necə səyahət edəcəklərini eşitməkdən beziblər. Hərənin bir həyat tərzi var. Həmin həyat tərzi hörmət olunmağa layiqdir”.

Sabiq səhiyyə naziri Aurelien Russo dekabrın əvvəlində istefa verməzdən öncə “Quru Yanvar”a qatılıb-qatılmayacağı ilə bağlı suala cavab olaraq demişdi: “Hökumətin insanlara bir ay ərzində həyatlarını necə yaşayacaqlarını söylədiyini eşidəcəyimə çox böyük şübhə ilə yanaşıram”.

Tənqidçilər üçün bu reaksiyaların hamısı Prezident Makrondan nümunə götürən hökumətin sağlam həyat tərzini təşviq etməkdənsə, şərab lobbisini incitməmək qərarı verdiyinin əlamətidir. Narkoloq Jan-Pyer Kuteron deyib: “Biz çox yaxşı bilirik ki, hazırkı hökumətlə və hamıdan əvvəl indiki prezidentlə alkoqol lobbisi arasında əlaqələr xüsusilə güclüdür”.

“Quru Yanvar” tərəfdarları deyirlər ki, Fransa əvvəlkitək Avropanın dördüncü ən böyük alkoqol istehlakçısıdır və spirt hər il 40 mindən çox fransızın ölümünə səbəb olur. Onlar, həmçinin qeyd edirlər ki, əgər kampaniya Fransa hökumətindən maddi və mənəvi dəstək alarsa, onun əhatə dairəsi 2023-cü ildə olduğu kimi, 16 min nəfərlə məhdudlaşmayacaq, yüz minlərlə insana çatacaq.

Fransa prezidentinin “Quru Yanvar”ı dəstəkləməyə şəxsən mane olduğu iddiası, onun keçmişdə alkoqola ictimai dəstəyi ilə əlaqələndirilir. E.Makron 2022-ci ildə gün ərzində iki dəfə – nahar və şam yeməyində şərab içdiyini demişdi. Bundan sonra “Review of French Wines” (“Fransa şərablarının icmalı”) jurnalı tərəfindən “İlin adamı” seçilmişdi. Ötən ilin iyun ayında Makron “Stad de Frans” stadionunda “Stad Tuluzen” reqbi komandasının soyunub-geyinmə otağında bir şüşə “Corona” pivəsini içərkən videoya çəkilmişdi. Həmin video Makronun içkini təşviq etdiyinə dair haqlı ittihamlara əsas vermişdi. “BBC News” qeyd edir ki, şərab sənayesinin hər il xarici satışlardan Fransaya 9 milyard avro (10 milyard ABŞ dolları) gəlir gətirdiyi bir şəraitdə, fransız şərabçılarını müdafiə etmək qərarı, əlbəttə, rasionaldır. Lakin tənqidçilər deyirlər ki, ictimai yerlərdə içki içmək dövlət başçısına yaraşmayan hərəkətdir.

Onu da qeyd edək ki, məlum hadisə Makronun yol vermiş olduğu səhvlər silsiləsinin davamıdır. Fransa dövlət başçısı vaxtaşırı bu cür səhvlərə, necə deyərlər, imza atır. Sonuncu hadisə yeni il münasibətilə xalqa müraciət zamanı yaşanıb. Ölkənin Vətənpərvərlər Partiyasının lideri, Avropa Parlamentinin sabiq deputatı Florian Filippo deyib ki, Makron xalqa müraciəti zamanı görkəmli yerdə Fransa bayrağının təsvirinin yerləşdirilməsi ənənəsindən imtina edərək qəbuledilməz hərəkət edib. “O necə cəsarət etdi?! Yeni il müraciəti zamanı Makronun arxasında Fransa bayrağı yox idi!” – deyə siyasətçi “X” hesabında yazıb.

Filipponun sözlərinə görə, Fransanın dövlət bayrağı prezidentin çıxışı zamanı onun arxasında dalğalanan çoxlu sayda digər Avropa ölkələrinin bayraqlarından sadəcə biri səviyyəsinə endirilib. Partiya lideri prezidentin bu qərarını Makronun Fransaya nifrət etdiyinin daha bir sübutu hesab edib.

Bütövlükdə, E.Makronun 2023-cü ildə Fransa prezidenti kimi fəaliyyəti ekspertlər tərəfindən tənqid edilib. Onlar Makronun bu rolda uğur qazana bilmədiyini deyirlər. Böyük Britaniyanın “Daily Express” nəşri bildirib ki, Makron pensiya islahatı və xaricdəki münaqişələrin həllində uğursuzluğa düçar olduğu üçün tənqid olunub. Fransa Prezidenti 2022-ci ildə xalqa Yeni il müraciətində 2023-cü ilin “Birlik, cəsarət, kollektiv ambisiya və xeyirxahlıq ili” olacağını vəd etmişdi. Ancaq 2023-cü ildə etimadsızlığı çətinliklə dəf edib, yayda isə ölkədə iğtişaşlar başlayıb. Bundan əlavə, Ukraynadakı müharibə, həmçinin İsrail və HƏMAS arasındakı münaqişə ilə bağlı da xaricdən Makrona təzyiq göstərilir. Paris Universitetinin müəllimi Bencamin Morel “Public Senate” nəşrinə verdiyi müsahibədə deyib: “Emmanuel Makron bankaya düşmüş milçəyə bənzəyir. Tamamilə boğulmamaq üçün fırlanmağa və qanad çalmağa məhkumdur. Amma, əslində, bu onun üçün mümkün deyil, çünki onu düşdüyü vəziyyətdən çıxarmağa heç bir qüvvə hazır deyil”.

Fransız politoloq Bruno Kautres isə deyib ki, 2023-cü ildə əsas suala aydın və başadüşülən cavablar verilmədi: “Emmanuel Makronun ikinci prezidentlik müddəti hara gedir? İstiqamət yoxdur. Onun prioritetlərinin və məqsədlərinin nə olduğunu hələ də bilmirik”.

Bu arada Fransanın istehsal sektorunun aşağıya doğru istiqamət götürdüyü məlum olub. Qiymətləndirmə sənayenin kiçilməyə davam etdiyini göstərən son məlumatlardan sonraya təsadüf edir. Fransanın istehsal sənayesinin satınalma indeksi ilin sonunda 42,1-ə düşüb. Əllidən aşağı göstərici fəaliyyətin azaldığını göstərir və bu, 2020-ci ilin may ayından bəri ən aşağı həddir. Sektorun perspektivləri tezliklə yaxşılaşmayacaq və iqtisadçılar vəziyyətin yaxın aylarda dəyişməyəcəyini proqnozlaşdırırlar.

Göründüyü kimi, Makron Fransası tənəzzül içindədir. Dövlətin birinci şəxsinin, Fransa silahlı qüvvələrinin ali baş komandanı və Andorranın da knyazı olan bir şəxsin mənəvi-əxlaqi keyfiyyətlərinin yumşaq desək, yerində olmaması tənəzzülün 2024-cü il ərzində dərinləşəcəyini deməyə əsas verir. Ancaq o, bundan nəticə çıxarmaq əvəzinə, yaxın-uzaq ölkələrinin daxili işlərinə qarışmağa uğursuz cəhdlər edir. O cümlədən Azərbaycan–Ermənistan münasibətlərində özünü cığal arbitr kimi aparmağa çalışır. Məhz onun təqsiri ucbatından Azərbaycan–Fransa əlaqələri ən soyuq dövrünü yaşayır. Makronun başqa ölkələrlə bağlı məsələlərə qarışmaqdansa, daxildəki problemlərin həlli ilə məşğul olmasında fayda vardır.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi

***İlyas HÜSEYNOV,***
***politoloq***



– Fransa lideri Makron ölkəsini rüsvay etməkdə davam edir. Onun hakimiyyəti illərində Fransanın maraqları köklü şəkildə zədələnib. Bu gün Fransanı arzuolunmaz dövlət kimi qəbul edirlər. Xüsusilə Afrika qitəsində 2023-cü ildə baş verən hadisələr, fransız diplomatlarının, hərbçilərinin qovulması Fransa liderinə dərs olmayıb. Makronun buraxdığı səhvlər artıq məişət səviyyəsinədək enib. “Quru Yanvar”la bağlı baş verənlər də göstərir ki, Fransa lideri mənəvi keyfiyyətlər baxımından da çox kasaddır. “BBC News”un yazısı, əlbəttə, Fransa lideri əleyhinə əsaslı tənqid olmaqla yanaşı, həm də rəsmi Parisə verilən qiymətdir. Amma həmin qiymət birbaşa Fransa liderinə yazılır.

Fransanın mənfi imicdə göstərilməsinin, reytinqinin aşağı düşməsinin baiskarı da məhz Makrondur. Biz bir sıra tədbirlərdə, rəsmi mərasimlərdə də Makronun əyyaşlıq etdiyini görmüşük. Yazıda olan məqamlar da onun hansı düşüncəyə və insani duyğulara malik olduğunu bir daha nümayiş etdirir. Ona görə də biz, əslində, ermənipərəst Fransa hakimiyyətini görəndə, həm də, Makronun şəxsi imici və siyasi personası ilə bağlı məlumatları analiz etməliyik. Bilməliyik ki, içki düşkünü olan Fransa lideri bu gün Azərbaycana, Türkiyəyə, İslam dünyasına qarşı düşmənçilik edir. Biz çox yaxşı anlayırıq ki, onun bu düşmənçilik mövqeyinin arxasında, həm də, hansısa siyasi qrupların maraqlarını təmin etmək niyyyəti və əlbəttə, qeyri-insani yanaşmalar dayanır.

# Azərbaycan – regionun şəriksiz lideri

(əvvəli 1-ci səhifədə)

### İrəvan “iki stulda oturmaq”da hələ də davam edir

Arxada qoyduğumuz 2023-cü ildə Ermənistan və Rusiya arasında diplomatik münasibətlərin son otuz ildə görünməmiş səviyyədə gərginləşdiyini söyləyən ekspert İrəvanın bununla heç nəyə nail ola bilmədiyinə diqqəti yönəldib:

– Ermənistan rəhbərliyi bu vaxtaqədər heç vaxt Rusiya ilə münasibətləri tamamilə kəsmək kimi məqsədyönlü siyasət yeritməyib. Çox güman ki, İrəvan lokal demarşları ilə iki məqsədə nail olmağa çalışır: Rusiyaya özünün narazılığını nümayiş etdirmək və Qərblə əməkdaşlıqdan fayda götürmək. Məhz buna görə aydın məsələdir ki, Ermənistan Rusiya ilə əlaqələrinə heç də tam və qəti şəkildə son qoymağa can atmır. Bunu da başa düşmək olar. Çünki İrəvan bunu özünə rəva görə bilməz və fəaliyyətini müvafiq olaraq, Moskvanın ünvanına lokal diplomatik demarşlarla məhdudlaşdırmağa, eyni vaxtda “iki stulda oturmağa” çalışır. Prinsip etibarı ilə Nikol Paşinyanın MDB liderlərinin Sankt-Peterburqda Yeni ilqabağı toplantısında iştirak erməsi dediklərimizi əyani formada təsdiqləmiş oldu.

Rusiya və Ermənistan arasında hərbi-texniki sahədə əməkdaşlığa dair yeni razılaşmaların müzakirəsinin getdiyi barədə sualı cavablandıran rusiyalı siyasi şərhçi 2024-cü ildə Moskvanın İrəvana yeni silahları göndərə biləcəyini istisna etməyib:



– Mənə belə gəlir ki, belə bir ssenarinin reallaşması mümkündür. Yəni, Rusiya hərbi texnikasını kommersiya əsasında Ermənistana göndərə bilər. İntəhası, istənilən halda, bu, bölgədə qüvvələr balansını dəyişməyəcək. Üstəlik, ermənilərin revanşizm xəyalları da tam iflasa uğrayıb və bundan sonra onun “dirilməsi” üçün heç bir şansı qalmayıb. İrəvanın buna nə gücü, nə də imkanları var.

### Regionun tək və şəriksiz lideri Azərbaycandır

Bütövlükdə, Rusiyanın öz qapılarını Ermənistanın üzünə bağlamadığını, həm İrəvan, həm də Bakı ilə bu və ya digər formada münasibətləri qoruyub saxlamaqda maraqlı olduğunu qeyd edən A. Naumov, həmçinin son üç ildə bu müstəvidə bəzi korrektələrin baş verdiyini də nəzərə çatdırır:

– Amma mən bu barədə dəfələrlə demişəm: əgər 2020-ci il İkinci Qarabağ müharibəsinə qədər Ermənistan Rusiyanın daha vacib və geniş imtiyazlara malik müttəfiqi hesab onunurdusa, indi hər şey dəyişib. Hazırda məhz Azərbaycan Rusiyanın olduqca vacib, daha proqnozlaşdırılan və faydalı tərəfdaşıdır. Bu tərəfdaşlığa iqtisadi-ticari sahədə ikitərəfli qarşılıqlı əməkdaşlıq da dəlalət edir. Fəqət Ermənistan barədə bunu deyə bilmərik. Elə götürək İrəvanın Hindistan və Fransadan silah tədarük etməsini. Bu addımlar Ermənistandan ötrü, bir növ, ağrıkəsici dərman kimidir. İrəvan iqtidarı bununla hamıya göstərməyə çalışır ki, baxın, biz ordumuzu gücləndiririk, kənardan silah-sursat alırıq. Amma bu zaman biz yaxşı anlayırıq ki, nə fransız, nə hind, nə də hər hansı ölkənin silahları Cənubi Qafqazda qüvvələr nisbətini dəyişə bilər. Bunu artıq bir dəfə demişəm: bu regionun lideri Ermənistan deyil, məhz Azərbaycandır. Həm də təkcə hərbi planda yox, o cümlədən texniki, diplomatik, digər sahələrdə də Azərbaycan şəriksiz liderdir. Yəni, kənardan silah almaq Paşinyan hakimiyyətinin status simvoludur ki, bununla, o, beynəlxalq siyasətdə hansısa oyunçu qismində qaldığını göstərməyə çalışır.

Müsahibəsində daha sonra Bakı və İrəvan arasında sülh sazişinin imzalanması perspektivinə toxunan A.Naumov istənilən halda bu perspektivin qaçılmaz olduğuna inandığını dilə gətirib:

– Nikol Paşinyan indi vaxtı uzadır. Ona görə ki, bu sənədin olmaması, guya, ona hətta hərbi-siyasi platformalarda bütün şəraiti tam uduzmasına baxmayaraq, ermənilərin hansısa mövqelərini, maraqlarını qoruyub saxladığını nümayiş etdirməyə imkan verir. Düşünürəm ki, yaxın vaxtlarda iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının şahidi olacağıq. Ermənistan tarixin gedişatına qarşı oynaya bilməz.

### 2023-cü il Ermənistanın əsl simasının ifşası ilə yadda qaldı

Tanınmış siyasi ekspert 2024-cü ildə Cənubi Qafqazda baş verəcək proseslərlə bağlı qənaətlərini bölüşərkən, bölgə üçün alternativsiz variantın vəziyyətin normallaşması olduğunu deyir:

– Bu bölgə kifayət qədər uzun müddət ziddiyyətlər burulğanında, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı on illərlə havadan asılı vəziyyətdə qalmışdı. Amma 2020-ci ildən sonra sular durulmağa başladı. Fəqət indiki Cənubi Qafqaza Rusiya və Qərbin qarşıdurması prizmasından baxanda aydın olur ki, Azərbaycanın öz ərazilərini qaytarması ilə bölgə sabitlik adasına dönüb.

Bir vacib məqamı da qeyd edim ki, bölgəyə birbaşa aidiyyatı olan oyunçuların hamısı sülhün və sabitliyin bərpasında maraqlıdır. Azərbaycan, Gürcüstan, Türkiyə, İran və Rusiya öz aralarında iqtisadi əməkdaşlığı və transmilli nəqliyyat qovşağında qarşılıqlı əlaqələrdə maraqlı olduqlarını nümayiş etdirirlər. Bəli, Cənubi Qafqazın gələcəyini sabit və tərəqqiyə yönəlik təsəvvür edirəm.

Ötən ilə nəzər yetirəndə onu Rusiya–Azərbaycan və Rusiya–Ermənistan münasibətləri üçün bütün suallara cavab nöqtələrinin qoyulduğu il kimi xarakterizə etmək olar. Kimin hansı dəyərə malik olduğu məhz 2023-cü ildə tam aydınlaşdı. İl göstərdi ki, ermənilərin çoxəsrlik dostluq barədə dedikləri ədalətsiz Qarabağ münaqişəsində Rusiyanı özünün yerinə döyüşməyə məcbur etmək cəhdindən qeyri bir şey deyilmiş. Həmçinin o da aydın oldu ki, Rusiya və Azərbaycan arasındakı münasibətlər sadəcə hansısa ümumtarixi yaddaşa əsaslanmır. Bu münasibətlər həm iqtisadi, həm də siyasi məzmunla yüklənmiş ikitərəfli əməkdaşlığa söykənir.

A.Naumov ötən il iki ölkə arasında ekspert əməkdaşlığının genişlənməsini və möhkəmlənməsini xüsusi olaraq vurğulayır:

– Rusiya–Azərbaycan Ekspert Şurasının iclaslarının şahidi olduq. Hökumətlərin perspektivə hesablanmış layihələri kifayət qədərdir. Misal üçün, Şimal–Cənub dəhlizinin beynəlxalq ticarətdə çox vacib şəbəkəyə çevrilməklə yanaşı, həmçinin Rusiya və Azərbaycanı bir-birinə daha sıx birləşdirəcəyinə qətiyyən şübhə etmirəm. Ümumiyyətlə, arxada buraxdığımız ilin, ilk növbədə, Azərbaycanın ərazi bütövlüyünün tam bərpası, eyni zamanda, Nikol Paşinyanın başçılıq etdiyi Ermənistanın əsl simasının bütün çılpaqlığı ilə üzə çıxması və ifşası ilə yaddaşlarda qalacağı birmənalıdır. İnanıram ki, xalqlarımız və dövlətlərimiz arasındakı dostluq münasibətləri 2024-cü ildə və sonrakı illərdə məqsədyönlü şəkildə daha da möhkəmlənəcək və inkişaf edəcək.

***İ.HƏSƏNQALA***
***XQ***

# Muzeylərimiz dünənimizi yaşadır

**Tarixə qovuşmuş 2023-cü il Azərbaycan muzeylərində həyata keçirilən bir sıra layihələrlə əlamətdar olub.**



İlk növbədə, qeyd edilməlidir ki, Azərbaycan Milli Xalça Muzeyində ötən il xeyli tematik ekskursiya, mühazirə, kitab təqdimatı, ustad dərsləri ilə yadda qalıb. Bu baxımdan "Heydər Əliyev İli" ilə bağlı Ümummilli liderə həsr olunmuş "Mədəniyyətlərarası dialoq və etnik özünəməxsusluq" mövzusunda beynəlxalq elmi konfransı və "Tarixin salnaməsi" adlı sərgini göstərmək olar. Daha bir mühüm hadisə isə 31 ildən sonra Şuşa şəhərində muzeyin filialının fəaliyyətinin bərpası, nadir Qarabağ xalça nümunələrinin yenidən doğma diyarda sərgilənməsidir. Həmçinin muzey bu il peşəkarların rəyləri əsasında verilən "Ekspertlərin seçimi mükafatı"na layiq görülüb.

Azərbaycan Milli İncəsənət Muzeyində "Heydər Əliyev – 100: sevimli əsərlər", "Türkiyə–Azərbaycan qardaşlığı: Anadoludan əsintilər", "Mədəni yaddaşımızda Qərbi Azərbaycan", "Miniatürsayağı","Çin incəsənəti Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından", və "Zamanla dialoq" sərgiləri maraqla qarşılanıb.

Milli Azərbaycan Tarixi Muzeyində 2021-ci ildə yaradılan Vətən müharibəsi fondunun zənginləşdirilməsi istiqamətində il ərzində işlər davam etdirilib. Muzeyi ümumilikdə 12 400 nəfər ziyarət edib ki, onların da 5100-ü xarici qonaqlar olub.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində hər il olduğu kimi, görkəmli şəxsiyyətlərin yubileyləri, əlamətdar hadisələrlə bağlı tədbirlər, konfranslar, seminarlar təşkil olunub. S.Urməvinin 825, Ə.Marağayinin 670, M.M.Nəvvabın 190 illiyinə həsr edilən "Klassik Şərq və Azərbaycan poeziyası və musiqisinin mədəniyyətlərarası səsləşmənin "İpək yolu kimi" mövzusunda beynəlxalq konfrans, Ümummilli liderin 100 illik yubileyi çərçivəsində "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" mövzusunda respublika konfransı, "Mən azərbaycanlıyam" adlı ədəbi-musiqili gecə, həmçinin peşəkar milli teatrın 150 illiyi ilə əlaqədar "Azərbaycan dramaturgiyası və Azərbaycan milli teatrı" mövzusunda elmi konfrans keçirilib.

İl ərzində Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində, onun filiallarında və muzeydən kənarda ümumi 55 tədbir keçirilib. "Gənclərə dəstək layihəsi" çərçivəsində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası ilə birgə "Fortepiano musiqisi axşamı", "XX əsrin musiqisi", "Bir çərşənbə axşamı", "Bahar gəlir", "Gitara musiqisi axşamı" adlı konsertlər təşkil olunub. Tədbirlərdə qonaqlara mövzular üzrə ekspozisiyada nümayiş olunmayan, arxiv materialları əsasında hazırlanmış slayd-şoular vasitəsilə muzeyin zəngin fondları ilə tanış olmaq imkanı yaradılıb.

İstiqlal Muzeyində "Ürəklərdə yaşayan dahi şəxsiyyət" adlı ədəbi-bədii tədbir, "Millətə adanmış ömür" adlı tədbir-sərgi maraqla qarşılanıb. Burada, həmçinin ziyarətçilər üçün Azərbaycan, rus və ingilis dillərində 330 ekskursiya təşkil olunub. C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində əlamətdar mədəniyyət hadisələri, yubileylərlə bağlı müxtəlif tədbirlər keçirilib. "Heydər Əliyev və Azərbaycan" adlı layihə uğurla həyata keçirib. Ölkəmizdə keçirilən I Beynəlxalq TÜRKSOY Teatr Festivalı ilə bağlı rəssamların tamaşalara çəkdikləri dekorasiya və geyim eskizlərindən ibarət "Eskizdən səhnəyə" adlı səyyar sərgi ilə də çoxsaylı ziyarətçilər tanış olublar.

***XQ***

# Milli Dram Teatrının sənət hesabatı

**Ümummilli lider Heydər Əliyevin 100, Azərbaycan milli peşəkar teatrının yaranmasının 150 illiyi ilboyu yaddaqalan tədbirlərlə qeyd edilib. Mədəniyyət Nazirliyinin silsilə aksiyaları çərçivəsində regionlara qastrol səfərləri təşkil olunub. Akademik Milli Dram Teatrı da bu layihədə fəal iştirak edərək, Lənkəran, Şəki və Mingəçevirdə tamaşalar göstərib.**




Qastrollarda teatr kollektivi İlyas Əfəndiyevin "Hökmdarın taleyi" əsəri əsasında Mərahim Fərzəlibəyovun quruluş verdiyi "Qarabağnamə", Əli Əmirlinin pyesi əsasında Azərpaşa Nemətovun hazırladığı "Ah, bu uzun sevda yolu" və "Məlikməmməd" nağıl-tamaşalarını oynayıb.

Ümummilli liderin 100 illiyinə həsr edilmiş "Heydər Əliyev və milli teatr sənəti" layihəsi də yaddaqalan olub. Layihə üzrə Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi tamaşaçılara təqdim edilib. İkihissəli tamaşada Şeyx Nəsrullahı Xalq artisti Nurəddin Mehdixanlı, İsgəndəri isə Əməkdar artist Anar Heybətov canlandırıblar. Qeyd edək ki, "Ölülər" tragikomediyası Ulu öndərin ən çox sevdiyi əsər olub.

Ötən il həm də Dövlət Akademik Milli Dram Teatrında yubiley mərasimləri də təşkil olunub. Xalq artistləri Rafiq Əzimovun anadan olmasının 85 illiyi münasibəti ilə keçirilən tədbirdən sonra onun rol aldığı "Qarabağnamə" tamaşası təqdim edilib. Tofiq Kazımovun 100 illiyinə həsr edilmiş yubiley gecəsi isə Şıxəli Qurbanovun "Sənsiz" əsərinin yeni quruluşda premyerası ilə yadda qalıb. Xatırladaq ki, sözügedən əsər səhnəyə ilk dəfə 1967-ci ildə məhz Tofiq Kazımovun quruluşunda gəlib. Teatrda Xalq rəssamı Nazim Bəykişiyevin 75 illik yubileyi də qeyd olunub.

Şıxəli Qurbanovun "Sənsiz" tamaşasının təqdimatından sonra Anarın "Dantenin yubileyi" tamaşasının premyerası olub. Daha bir yeni tamaşa Çingiz Aytmatovun "Əsrə bərabər gün" əsərinin motivləri əsasında hazırlanır. Səhnə işinə teatrın bədii rəhbəri Mehriban Ələkbərzadə quruluş verib, tamaşa bu yaxınlarda təqdim ediləcək.

Teatrın ölkənin sərhədlərindən kənarda da uğurlu çıxışları olub. Kollektiv Gürcüstanda keçirilən Nodar Dumbadze adına IV Beynəlxalq Teatr Festivalında ölkəmizi təmsil edib. Festivalın repertuarında N.Dumbadzenin əsərləri və gürcü yazılı nümunələrinin səhnə təfsiri əsasında hazırlanan tamaşalar yer alıb. Teatr Qoderzi Çoxelinin eyniadlı hekayəsi əsasında səhnələşdirilən "Küknarlara məktub" tamaşası ilə çıxış edib. Tamaşanı festivalın münsiflər heyəti yüksək dəyərləndirib və "Gürcü nəsrinin ən yaxşı interpretasiyasına görə" mükafatına layiq görüb.

Ötən ilin noyabrında Sankt-Peterburqda keçirilən mədəniyyət forumunda 73 ölkənin nümayəndələri qarşısında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru səlahiyyətlərini icra edən Əməkdar mədəniyyət işçisi İlham Əsgərov da çıxış edib. O, həmçinin Aleksandrinsk Teatrının direktoru Sergey Yemelyanov, Belarus Akademik Milli Teatrının direktoru Aleksandr Şastakoy və Serbiya Respublikası Milli Teatrının direktoru Diana Qrbiç ilə görüşərək, qarşılıqlı əməkdaşlıq, qastrol səfərlərinin və festivalların təşkili haqqında müzakirələr aparıb. Bu barədə açıqlama verən İlham Əsgərov bildirib ki, xarici ölkələrin teatrları ilə əməkdaşlığın qurulması Azərbaycanın mədəni əlaqələrinin daha da möhkəmlənməsinə kömək edəcək.

***R.QURBANLI***
***XQ***

**Vida sözü**

# Özləri getdilər, sənətləri qaldı

**Yeni ilin ilk həftəsində Əməkdar artistlər – ustad qarmon ifaçısı Gülbahar Şükürlü və populyar müğənni Aygün Hümbətova (Bəylər) dünyalarını dəyişiblər. Mədəniyyət Nazirliyinin kollektivi və mədəniyyət ictimaiyyəti adından ötən günlərdə sənətkarların vəfatından kədər ifadə olundu, mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verildi.**




Özlərinə məxsus ifaları ilə musiqisevərlərin rəğbətini qazanan 62 yaşlı qarmon ustası da, 48 yaşlı müğənni də əsrin bəlası sayılan xərçəng xəstəliyindən dünyalarını dəyişiblər.

Gülbahar Şükürlü əvvəllər Xalq artistləri Mələkxanım Əyyubova, Səkinə İsmayılova və Zöhrə Abdullayeva ilə birgə el şənliklərində, məclislərdə çıxış edərək ürəklərə yol tapmışdı. 1993-cü ildə Zöhrə xanımın təkidi ilə efirə çıxaraq Azərbaycan televiziyasında 30 dəqiqəlik solo konsertlə böyük sənətkar olduğunu sübut etmişdi. Gül ətirli ifaları ilə bahar ovqatı yaradan ifaçı 13 il əvvəl ona məxsus rəqs havalarının və "Könül sındırmışam" mahnısına çəkdirdiyi klipinin yer aldığı "Azərbaycan" adlı kompakt diskini sənətsevərlərə təqdim etmişdi. Korifey sənətkar Ramiz Mirişlinin həmin mahnısına virtuoz ifa ilə yeni nəfəs verən Gülbahar xanımın klipində onun tərəf müqabili də məhz bəstəkarın özü olmuşdu.

Unudulmaz xanım sənətkar "Aytac","-Rusifi", "Ləman" (övladlarının adlarıdır), "Rəvanə" kimi populyar rəqslərin müəllifi idi. Yaradıcılıq dövrü ərzində Gülbahar xanımın 4 albomu işıq üzü görüb. İstedadlı yetirmələri var.

Azərbaycan sevgisindən danışan sənətkar müsahibələrinin birində demişdi: "Ürəyim musiqi ilə döyünür. Bu döyüntü Vətənimi sevməyimdən qaynaqlanır. Mən Azərbaycandan başqa heç bir ölkədə yaradıcı işlə məşğul ola bilmərəm".

Xalq artisti Nazpəri Dostəliyeva illər öncə mahir qarmon ifaçısını özünə doğma bacı bildiyini, onun barmaqlarının qızıl olduğunu demişdi: "Fəxr edirəm ki, sənət dünyasında özümə Gülbahar kimi bacı qazanmışam…"

O, hər zaman müsbət aura yaradan sənətkar olub. Bu barədə söz düşəndə isə xarakterinin fərqli tərəfini önə çəkib: "Efirlərdə ruh yüksəkliyi ilə qaynar ifamı görənlər, bəlkə də, düşünürlər ki, qəm-kədərin nə olduğunu bilmirəm. Əslində, çox kövrək insanam. Gözlərimin yaşı ovcumun içindədir". Elə sənətkarı sevənlər də qara xəbərini göz yaşları ilə qarşıladılar…

Aygün Hümbətova isə ilkin musiqi təhsilini Səttar Bəhlulzadə adına mədəniyyət sarayının musiqi məktəbində nağara sinfi üzrə almış, sonradan oxumağa başlamışdı. 1998-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının xanəndəlik fakültəsinə daxil olan ifaçının sənət taleyində yeni səhifə açılmışdı. O, görkəmli sənətkarlar Arif Babayev, İslam Rzayev, Ağaxan Abdullayev, Elxan Müzəffərov, eləcə də Alim Qasımovdan muğamın incəliklərini öyrənmişdi. "Tut ağacı", "Sən mənim ruhumun qida yerisən" mahnısını necə ürəklə oxuduğu yaddaşlara həkk olunmuşdu.

2005 ildə beynəlxalq Səmərqənd folklor festivalında folk-muğam triosunun müşaiyəti ilə çıxış edən Aygun xanım Azərbaycan muğam məktəbini uğurla təmsil edərək 1-ci mükafata layiq görülmüşdü. Fransa, İspaniya, Mərakeş, ABŞ, İngiltərə, Rusiya, Türkiyə, Yunanıstan, Hollandiya, Almaniya, Cənubi Koreya, İsveç, Danimarka və digər ölkələrdə solo konsertlərlə çıxışlar edib, festivallarının daimi iştirakçısı olub. Yaxşı xatırlayırıq ki, Aygün Bəylər televiziyada "Yenə o bağ olaydı" adlı müəllif proqramıyla efirə çıxır, çağdaş musiqi ilə bağlı duyğu və düşüncələrini paylaşır, böyük sənətkarların yaradıcılığına bugünümüzdən işıq tuturdu.

Bir neçə il əvvəl Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə Heydər



Əliyev Sarayında o, "Xatirədir" adlı konsert proqramı ilə çıxış etmişdi. Bəstəkar mahnılarını, eləcə də "Bayatı-kürd" muğamını dəsgah şəklində ustalıqla ifa edərək, nadir səsi və oxu tərzi sənətsevərlərin alqışları ilə müşayiət olunmuşdu. Ötən ilin sonunda – dekabrin 26-da yenə də həmin sarayda Aygün Bəylərin son konserti oldu və Ulu öndərin sevimli mahnılarını, həmçinin özünün "Mehribani" simfonik muğamını "Cadenza" orkestrinin müşayiəti ilə təqdim etdi. Özü də gecədən yığılan vəsait "YAŞAT" Fonduna ianə ediləcəkdi. Amma yardıma ehtiyacı olanları yaşatmağa kömək etmək istəyən müğənni özü konsertdən bir neçə gün sonra həyata əlvida dedi…

Əməkdar artist Aybəniz Haşımovanın Aygün haqqında dedikləri: "Heyf, onun gəncliyinə, yarımçıq qalan arzularına, mərdliyinə, oxuyan gözəl ürəyinə. Heyf, susan səsinə. O səs nələr söylədi. Bülbül susanda insana dözülməz olur".

Aygün xanım sənətinin lap dərinliklərinə baş vurmaq üçün Musiqi Akademiyasının yeni açılan simfonik dirijorluq və bəstəkarlıq fakultəsinə də daxil olmuşdu. Bu il oranı bitirəcəkdi, təəssüf ki...

Bəli, sevimli sənətkarlar bizi cismən tərk etsələr də, gözəl ifaları ilə daim xatırlanacaqlar.

***Ə.DOSTƏLİ***
***XQ***

# Qərbi Azərbaycanın ədəbi mühiti "Ədəbiyyat qəzeti"ndə

**Ədəbiyyatı sevən hər kəsin böyük maraqla oxuduğu "Ədəbiyyat qəzeti"nin 2023-cü ildə son nömrəsi Qərbi Azərbaycan İcması ilə birgə layihə əsasında xüsusi buraxılış kimi nəşr olunub.**

Böyük Turan ideyasının mədəni xəyaldan siyasi gerçəkliyə çevrildiyi hazırkı dönəmdə həyatımızın mühüm bir mərhələsi yaşanır. Bu, Qərbi Azərbaycan mərhələsidir. Qəzetin xüsusi buraxılışının bütünlüklə "Qərbi Azərbaycan" adlanması ölkə başçısı İlham Əliyevin Qayıdış Konsepsiyasının həyata keçirilməsində hər bir düşüncə adamının, ziyalının da payı olmasını özündə ehtiva edir. Qəzetin hər səhifəsindən bu fikir qırmızı xətlə keçir ki, möhtərəm Prezidentimizin Qərbi Azərbaycan məsələsi, əzəli torpaqlara qayıdışla bağlı çağırışlar səsləndirməsinin əsasında yeni milli təfəkkürün, təzələnən diskursun və məfkurə dalğasının düşüncədə və əməldə ifadəsini görmək istəyi dayanır.

Baş redaktor Azər Turan "Ədəbiyyatda həsrət mədəniyyət hadisəsidir, yaxud yeni tariximizin Qərbi Azərbaycan mərhələsi" adlı məqaləsində yazır: "Qarşıdan Azərbaycanda prezident seçkiləri gəlir. Milli tariximizin ən məsul dövründəyik. Budəfəki seçki fevral ayına təsadüf edəcək – Turan düşüncəsini ilk dəfə siyasi gündəmə gətirən Əli bəy Hüseynzadənin doğum tarixinə. Seçkilər ərəfəsində böyük mütəfəkkirin 160 yaşı tamam olacaq... Turan romantik idealları gerçəkləşdirməklə hasilə gəlir. Turan məfkurəsinin qurucusu Əli bəy Hüseynzadənin 170 illik yubileyinə – Bakıdan İstanbula XXI yüzilin mədəniyyət yoluyla – Zəngəzur yoluyla getmək hamımızın arzusudur..."

Xüsusi buraxılışda Elnarə Akimovanın "Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdış konsepsiyası: məsuliyyətimiz və vəzifələrimiz", Alqış Həsənoğlunun "Prezident mütləq deyəcək: "Birinci kəndimiz Nüvədi!", Səyyad Aranın "İrəvana gedən yollar"




(romandan parça), Məmməd Orucun "Göyçədən Türk dünyasına (Aşıq Ələsgər haqqında)", Xalq şairi Vahid Əzizin "Dərələyəz" (poemadan parça), İftixar Piriyevin "Qədim, fədakar sənət ocağı – İrəvan Dövlət Azərbaycan Dram teatrı", Paşa Qəlbinurun "İrəvanda qalan uşaq" (esse), Fəridə Səfiyevanın "Milli varlığına bağlı alim – Heydər Hüseynov", Mətanət Vahidin "Mirəli Seyidovun mifoloji tədqiqatları çağdaşlıq müstəvisində", Kənan Hacının "Ədəbiyyatımızda "köç" ağrısı (Fərman Kərimzadə, Məmməd Oruc və Hidayətin əsərləri əsasında) və digərlərinin maraqlı yazıları yer alıb. Bədii nümunələrə də geniş yer verilib.

**Ə.NƏCƏFXANLI**
**XQ**

# Qədim qitənin mədəniyyət paytaxtları

**2024-cü il üçün Avropanın mədəniyyət paytaxtı olan şəhərlər açıqlanıb.**

Avropa Parlamentinin "X" hesabında bu barədə edilən paylaşımda bildirilib ki, Bad İşl (Avstriya), Tartu (Estoniya), Bodo (Norveç) bu il üçün Avropanın mədəniyyət paytaxtları elan olunub.



Qeyd edək ki, "Avropanın mədəniyyət paytaxtı" təşəbbüsü 1985-ci ildə hazırlanıb və bu günə qədər Avropa İttifaqı (Aİ) və ondan kənarda 60-dan çox şəhər bu statusa layiq görülüb. 2023-cü ildə Avropanın mədəniyyət paytaxtı olan şəhərlər isə Elefsina (Yunanıstan), Vesprem (Macarıstan), Timişoara (Rumıniya) olub.

***XQ***

# Çinin ABŞ-a cavab sanksiyaları

**Çin hökuməti ABŞ-ın Tayvan administrasiyasına silah verməsi, eləcə də Çin müəssisələri və fiziki şəxslərin ilə bağlı məhdudiyyətlər tətbiq etməsi ilə əlaqədar bu ölkənin beş şirkətinə qarşı cavab sanksiyaları tətbiq edəcək. Bu barədə Çin Xarici İşlər Nazirliyi məlumat yayıb.**




"Birləşmiş Ştatlar Çinin Tayvan bölgəsinə silah satmaqla və müxtəlif bəhanələrlə Çin müəssisə və şəxslərinə qarşı qeyri-qanuni birtərəfli sanksiyalar tətbiq etməklə "vahid Çin" prinsipini açıq şəkildə pozur", – deyə XİN-in bəyanatında bildirilir.

ABŞ tərəfinin yol verdiyi ciddi pozuntulara cavab olaraq, Çin Xalq Respublikasının "Xarici sanksiyalara qarşı mübarizə haqqında" qanununa uyğun olaraq, "BAE Systems Land and Armament", "Alliant Techsystems Operation", "AeroVironment", "ViaSat və Data Link Solutions" şirkətlərinə qarşı sanksiyalar tətbiq etmək qərara alınıb.

Çin XİN-in məlumatına görə, tətbiq edilən sanksiyalar bu şirkətlərin ölkə ərazisindəki daşınmaz əmlakı və daxil olmaqla onların aktivlərinin dondurulmasını nəzərdə tutur. "Təşkilatlar və şəxslərə onlarla əqdlər bağlamaq, əməkdaşlıq etmək və ya digər qarşılıqlı fəaliyyət növlərini həyata keçirmək qadağan edilir", – deyə bəyanatda vurğulanır.

Sənəddə vurğulanır ki, Birləşmiş Ştatlar öz hərəkətləri ilə Çinin suverenliyini, dövlət təhlükəsizlik maraqlarını, müəssisə və şəxslərinin qanuni hüquqlarını pozur və "Tayvan boğazında sülh və sabitliyə ciddi ziyan vurur".

Bəyanatda deyilir: "Çin bu cür tədbirlərdən qəti şəkildə narazıdır. Çin hökuməti öz ölkəsinin suverenliyini, təhlükəsizliyini və ərazi bütövlüyünü, Çin müəssisələrinin və vətəndaşlarının qanuni hüquq və mənafelərini qorumağa sadiqdir. Biz israr edirik ki, ABŞ tərəfi "vahid Çin" prinsipinə, Çin və ABŞ-ın üç birgə kommünikesinin müddəalarına riayət etsin, beynəlxalq hüquqa və beynəlxalq münasibətlərin əsas normalarına hörmət etsin, Tayvanı silahlandırmaqdan və birtərəfli qaydada qeyri-qanuni sanksiyalar tətbiq etməkdən çəkinsin".

Cin XİN Vaşinqtonun Tayvanla hərbi-texniki əməkdaşlığından ciddi narahatlıq keçirdiyini bildirib.

Qeyd edək ki, Tayvan 1949-cu ildən özünün administrasiyası tərəfindən idarə olunur. Lakin əksər ölkələr, o cümlədən Rusiya adanı Çinin əyalətlərindən biri hesab edir. Birləşmiş Ştatlar 1979-cu ildə Tayvanla diplomatik əlaqələri kəsib və ÇXR ilə əlaqələr qurub. Hazırda isə "vahid Çin" siyasətinə sadiqliyini etiraf edən Birləşmiş Ştatlar Tayvan administrasiyası ilə əlaqələri davam etdirir, hətta adanı silahla təmin edir.

***Paşa ƏMİRCANOV***
***XQ***

# Kiyevin silah-sursat problemi artır

**Cəmi ay yarımdan sonra Rusiya–Ukrayna müharibəsinin başlanmasının ikinci ili tamam olacaq. Bu ağır silahlı qarşıdurma hər iki ölkənin iqtisadiyyatına ağır zərbələr vurub. Ən başlıcası, bir vaxtlar dost sayılan bu xalqlar müharibədə on minlərlə oğul və qızını itirib.**

Hazırda döyüşlər isə bütün cəbhə boyu davam edir. Dünən Ukrayna Silahlı Qüvvələri Rusiyanı Krım yarımadası ilə birləşdirən dəmiryolunu dağıdıb. Bu barədə Mariupol şəhəri merinin müşaviri Pyotr Andryuşenko özünün "Teleqram" saytında yazıb.

O bildirib ki, Ukrayna Ordusu Qranitnoye kəndi ərazisinə dəqiq zərbələr endirib. Məlumata görə, ərazidəki yanacaq çənləri də hədəf alınıb. Qeyd edək ki, Ukrayna son günlər Krım yarımadasına müntəzəm zərbələr endirir.

Bununla bərabər, Ukraynanın silah-sursat sarıdan problemləri durmadan artır. Görünən budur ki, Qərbin maliyyə yardımının getdikcə azalması Ukraynanın daha ucuz dronlara üstünlük verməsinə səbəb olur.

Dünən "FPV" pilotsuz təyyarə layihəsinin koordinatoru Boqdan Danilov bildirib ki,Ukraynanın son zamanlar modern silahlara olan tələbatı çox artıb. Onun sözlərinə görə, Kiyev gələcəkdə adıçəkilən dronlar üçün bütün komponentləri ölkə daxilində istehsal etməyi planlaşdırır. Ukrayna Prezidenti Volodimir Zelenski isə bildirib ki, bu il ölkədə 1 milyon dron istehsal olunacaq.

Bu arada məlum olub ki, ABŞ Ukraynanı "Patriot" raketlərinin mərmiləri ilə uzun müddət təmin edə bilməyəcək. "The New York Times" qəzeti bu barədə ABŞ-dakı mənbələrə istinadən yazıb.

Qeyd olunub ki, səbəb maliyyədir. Belə ki, bu sistemlər üçün təkcə kəsici mexanizmlərin qiyməti 2–4 milyon dollardır. Ukrayna Silahlı Qüvvələrinin adı açıqlanmayan zabiti məsələyə münasibət bildirirəkən söyləyib ki, bu, Kiyevə baha başa gələ bilər: "Xarici tərəfdaşlarımız bizdən üz döndərsələr, müharibənin başlanğıcına qayıdacağıq. İnsanlarımız sığınacaqlardan çıxa bilməyəcəklər, qarşı tərəf şəhərlərimizi xarabalığa çevirməyə davam edəcək".



Xatırladaq ki, Rusiya ilə Ukrayna arasında müharibə 2022-ci il fevralın 24-də başlayıb. Ukrayna ötən ilin iyunundan əks-hücum əməliyyatları həyata keçirir. Rəsmi Kiyevin mövqeyinə görə, Ukraynanın ərazi bütövlüyü tam təmin olunmadan müharibə başa çatmayacaq. Prezident Volodimir Zelenski daha əvvəl bildirmişdi ki, Qərb dəstəyini dayandırsa, ölkəsi geri çəkilməyə məcbur olacaq. Prezident əks-hücum əməliyyatının uğursuz olduğunu da etiraf edib.

Yeri gəlmişkən, ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivan bildirib ki, Konqres Ukrayna üçün əlavə büdcə ayırmalarını təsdiqləməkdən imtina edərsə, Ağ ev administrasiyası 2024-cü ilin yanvarından Ukraynaya yeni silah paketləri ötürmək imkanını itirəcək.

***M.HACIXANLI***
***XQ***

# Baş Prokurorluq ötən ilə yekun vurub

**Yanvarın 7-də Baş Prokurorluqda 2023-cü ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**



Diqqətə çatdırılıb ki, 2023-cü il prokurorluq orqanları üçün də uğurlu il olub. Əlavə edilib ki, 2023-cü ildə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən qəsdən adam öldürmə faktları üzrə ötən illərdən bağlı qalmış 7 iş, rayon (şəhər) prokurorluqları tərəfindən 3 iş, (Ordubad, Bakı şəhər Nizami, Sumqayıt şəhər prokurorluqları), Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsi tərəfindən isə 1 iş olmaqla, ümumilikdə 11 iş daxili işlər, dövlət təhlükəsizliyi və penitensiar xidmət orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılıb.

Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli fərmanı ilə yaradılmış "Elektron prokurorluq" informasiya sisteminin əsas modullarının ötən il aprelin 1-dən istifadəyə verildiyini qeyd edən Baş prokuror hazırda yeni modulların yazılması və işlək modulların isə təkmilləşdirilməsi işləri aparıldığını vurğulayıb.

Xüsusi ilə vurğulanıb ki, tabe qurumların infrastrukturunun yaxşılaşdırılması istiqamətində görülmüş işlər çərçivəsində 2023-cü ildə Laçın və Qəbələ rayon prokurorluqlarının yeni inzibati binaların açılışı baş tutub, hazırda isə Kürdəmir, Şəki və Bakı şəhəri Nəsimi, Nərimanov və Pirallahı rayon prokurorluqlarının yeni inzibati binalarının tikintisi davam etdirilir.

2023-cü ildə Baş Prokurorluğun digər dövlətlərin prokurorluq orqanları ilə beynəlxalq hüquqi əməkdaşlığına toxunan Baş prokuror qeyd edib ki, 2023-cü il ərzində Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq Prokurorlar Assosiasiyası, Avropa Prokurorlarının Məşvərətçi Şurası, Avropa Birliyinin Cinayət Ədliyyəsi üzrə Əməkdaşlıq Agentliyi (Eurojust), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin baş prokurorlarının Əlaqələndirmə Şurası və digər beynəlxalq təşkilatlarla, eləcə də xarici ölkələrin hüquq-mühafizə orqanları ilə əlaqələrin genişləndirilməsi istiqamətində tədbirlərin görülməsi davam etdirilib, Baş Prokurorluğun rəhbərliyinin və digər məsul şəxslərinin xarici ölkələrə 16 səfəri, xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndə heyətlərinin Baş Prokurorluqda 35 qəbulu təşkil olunub, bir sıra xarici ölkələrin prokurorluq və digər hüquq-mühafizə orqanları ilə ikitərəfli əməkdaşlıq barədə sənəd layihələrinin hazırlanması, razılaşdırılması və bağlanmasının təşkili təmin edilib.

Vurğulanıb ki, 2023-cü il sentyabrın 15-də Bakıda Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 33-cü iclası və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü görüşü keçirilib, 2024-cü ildə beynəlxalq əməkdaşlıq çərçivəsində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu konfransının və ümumi yığıncaq mərasiminin 2024-cü ilin 27 sentyabr – 2 oktyabr tarixlərində Bakı şəhərində keçirilməsi nəzərdə tutulub.

2023-cü ildə normayaratma təşəbbüsü ilə bağlı fəaliyyətə toxunan Kamran Əliyev Baş Prokurorluq tərəfindən 28 normativ hüquqi akt layihəsi hazırlanaraq göndərildiyini, ötən il ərzində Baş Prokurorluqdan Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə 6 sorğu və 8 rəy verildiyini, Baş Prokurorluq tərəfindən hazırlanmış qiyabi məhkumetmə ilə bağlı Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsinin Milli Məclis tərəfindən qəbul edildiyini nəzərə çatdırıb.

Bildirilib ki, qarşıda duran əsas vəzifələrdən biri Ermənistan silahlı qüvvələri və qanunsuz silahlı birləşmələrindən ibarət cinayətkar birlik (təşkilat) tərəfindən törədilmiş cinayət faktlarına görə Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsinin icraatında olmaqla birgə vahid istintaq qrupu tərəfindən istintaqı aparılan cinayət işinin yekunlaşdırılması və təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verilməsidir.

Eyni zamanda, hesabat dövründə görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunub.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi 2024-cü ildə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlərin reallaşdırılmasında, cinayətkarlığa qarşı digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunmasında zəruri tədbirlərin görülməsini təmin edəcək.

***XQ***

*Təkrar*

## "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı bərpa, tikinti və idarəetmə xidməti" Publik Hüquqi Şəxsi

### "Cəbrayıl rayonunun Horovlu kənd yaşayış məntəqəsində qeyri-yaşayış obyektlərinin tikintisi" işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs satınalmalar şöbəsinin baş məsləhətçisi Zaur İbrahimov.

E-mail: zaur.ibrahimov@shzbti.gov.az

Telefon- + 994512078998.

İştirak haqqı 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs

VÖEN- 5200287501

BANK-"KAPİTAL BANK" ASC-nin 28 may filialı

Kod- 200123

VÖEN- 9900003611

M/h: AZ37NABZ01350100000000001944

H/h- AZ31AIIB380300D9447648156112

S.W.İ.F.T. : AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

• Tenderdə iştirak etmək üçün ərizə.

• İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

• Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü ərzində qüvvədə olmalıdır).

• Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

• Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri.

• Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).

• Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).

• Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.

• Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq olunmuş surəti təqdim edilməlidir).

• Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları.

• Baş podratçı kimi son 3 il (2020-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 20 (iyirmi) milyon manatdan az olmayan, müraciət edənin hissəsi isə ən azı 10 (on ) milyon olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq: layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 5 (beş) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və istismara qəbul və icazə aktları təqdim edilməlidir.

• Son üç ( 2020-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində tikinti- quraşdırma işləri üzrə ən azı 20 (iyirmi) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 10 yanvar 2024-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 18 yanvar 2024-cü il saat 16.00-a qədər, Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətində 19 yanvar 2024-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

### tabeliyindəki Dəniz Nəqliyyat Donanmasına sahil elektrik lövhələrinin satın alınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 16-sı saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili –1177

Ünvan – AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## "Bərdə-Avtonəqliyyat"ASC səhmdarlarının nəzərinə!

27 fevral 2024-cü il saat 10.00-da "Bərdə -Avtonəqliyyat" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. "Bərdə-Avtonəqliyyat"ASC-nin 2023-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.
2. "Bərdə-Avtonəqliyyat"ASC-nin vergi və yaranmış digər borclarının müzakirəsi və onların ödənilməsi.
3. Yeni idarə heyətinin seçilməsi.
4. Digər məsələlər.

Səhmdarlar yığıncagın gündəliyində nəzərdə tutulan məsələlərə aid materiallarla tanış olmaq üçün "Bərdə-Avtonəqliyyat" ASC-nin hüquqi ünvanına müraciət edə bilərlər.

Ünvan-Bərdə şəhəri, H.Aslanov küçəsi 119.

***İdarə heyəti***

## BİLDİRİŞ

"RƏVAN-TURAN" MMC (VÖEN 1403045021) müflis elan olunması ilə əlaqədar Bakı Kommersiya Məhkəməsinə ərizə ilə müraciət etmişdir. e-2-2(113)-6139/2023 saylı işə məhkəmə baxışı 15 yanvar 2024-cü il saat 15.20-yə təyin olunmuşdur. Debitor və kreditorlar Bakı Kommersiya Məhkəməsinə müraciət edə bilərlər.

Əlaqə telefonu- (012) 525-20-74.

Ünvan- AZ1040. Bakı şəhəri, Bakıxanov qəsəbəsi, O.Əfəndiyev küçəsi.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 289 (30404) 8 yanvar 2024-cü il, bazar ertəsi


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

## 2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.


Qarabağ Azərbaycandır!
Xalq qəzeti
Varislik ənənəsində Qələbə ovqatı
Lider xalqa söykənəndir
Zəfər zirvəsinə ucalan bayrağım!

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# İmişlidə qış alçası

**İmişlidə alça ağacı qış fəslində bar gətirib. Həm də qeyri-adi bir məqam ondan ibarətdir ki, 3 illik ağac ilk barını məhz qış fəslində verib.**



Qeyri-adi təbiət hadisəsi rayonun Çaxırlı kəndində qeydə alınıb. Sözügedən ağac 3 ildir ki, əkilib, amma bir dəfə də olsun bar gətirməyib. Ötən ayın əvvələrində ağac tumurcuqlayıb və şaxtalı hava olmasına baxmayaraq çiçəkləyib. Hazırda onun üzərində az da olsa alça var.

***XQ***

## İdman xəbərləri

# Nicat Abasov “İddiaçılar turniri-2024”də

***Maqnus Karlsen şahmat üzrə keçiriləcək “İddiaçılar turniri”ndə iştirak etməkdən imtina edib. Reqlamentə əsasən, Maqnus Karlseni yarışda Azərbaycan şahmatçısı Nicat Abasov əvəz edəcək.***



Bununla da, “İddiaçılar turniri”nin tam heyəti bəlli olub. Belə ki, bu nüfuzlu yarışda Nicat Abasovla yanaşı, Fabiano Karuana (ABŞ), Hikaru Nakamura (ABŞ), Yan Nepomnyaşi (FİDE), Praqqanandhaa (Hindistan), Vidit Qujrathi (Hindistan), Qukeş Dommaraju (Hindistan), Alireza Firuzja (Fransa) iştirak edəcəklər.

Qeyd edək ki, turnir 2024-cü ilin aprelin 3-dən 25-nə kimi Kanadanın Toronto şəhərində keçiriləcək.

# Güclü həndbolçularımız

***Həndbol üzrə Azərbaycan birinciliyinin zona yarışı keçirilib.***



Lənkəran Olimpiya İdman Kompleksində 2008-ci il və daha kiçik təvəllüdlü yeniyetmə həndbolçular arasında təşkil olunan turnirdə Cəlilabad kollektivi birinci yeri tutub. Yığma finalda Lənkəran təmsilçilərinə 13:4 hesabı ilə qalib gəlib. Masallı həndbolçularını üstələyən Lerik üçüncü yerdə qərarlaşıb. 5-ci yer uğrunda matçda isə Astara Yardımlıdan güclü olub.

Reqlamentə əsasən, Cəlilabad və Lənkəran komandaları iyunda Bakıda keçiriləcək Azərbaycan birinciliyinin final mərhələsində iştirak hüququ qazanıblar.

Yarış Gənclər və İdman Nazirliyi, Azərbaycan Həndbol Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

# 2023/2024 mövsümünün ən gənc futbolçuları

***Azərbaycan Premyer Liqasında 2023/2024 mövsümünün ən gənc futbolçularının adı açıqlanıb.***

AZƏRBAYCAN PREMYER LİQASI

Belə ki, hazırkı mövsümün ilk yarısında 18 yaşadək iki futbolçu meydana çıxıb. İlk iki dövrənin hər iki gənc oyunçusu “Sumqayıt”ın üzvüdür.

Mövsümün ən gənc futbolçusu ilk turda şans qazanan Nihad Əhmədzadədir. Sənan Muradlı isə bu siyahıda ikincidir.

Onlardan başqa, “Turan Tovuz”un oyunçusu Cavid Qasımov 19 yaşadək Premyer Liqa matçına çıxıb.

***Leyla SABİRQIZI***
***XQ***

# Ötən ilin ən böyük kosmik kəşfləri

**2023-cü il kosmosun tədqiqi istiqamətində bir çox elmi kəşflərlə yadda qalıb. Bura yaxın və uzaq qalaktikalarda ulduz partlayışlarından tutmuş kosmosun ənginliklərində müşahidə olunan uzaq qara dəliklərə qədər yeni heyrətamiz bilgilər daxildir. Dünya alimlərinin ötən il ərzində aşkarladıqları kosmik kəşflərdən bir neçəsini bu gün oxucuların diqqətinə təqdim edirik.**

## Günəşdə ən güclü işıq seli

***2023-cü ildə Günəşdə qamma şüaların olduqca güclü sıçrayışı qeydə alınıb. NASA-nın “Fermi” qamma-teleskopunun aşkar etdiyi bu hadisə Günəşdə olduqca güclü işıq selinin yaranmasına səbəb olub.***

İlkin hesablamalara görə, Günəşdəki son qamma şüalanması 200 qiqavolt gücündə olub.



Aradan qısa müddət keçəndən sonra Meksikadakı məşhur HAWC rəsədxanasının əməkdaşları müəyyən ediblər ki, haqqında söhbət açılan qamma şüalanma 1 teravolt gücündədir.

Oxucular soruşa bilərlər ki, Günəşdəki sıçrayışın Yer kürəsində insanların həyatına və fəaliyyətinə təsiri olurmu? Birmənalı olaraq cavab vermək olar ki, Günəşdəki ən cüzi dəyişikliklər belə həyatımıza, planetin fauna və floarasına öz təsirini göstərir.

## Ən parlaq partlayış

***Ötən ilin mayında alimlər qalaktikada olduqca parlaq partlayış qeydə alıblar. Onun***



***parlaqlığı əvvəlkilərdən onqat çoxdur. Maraqlı burasıdır ki, bu partlayışın işığı Yerə çatmaq üçün 8 milyard il səyahət edib.***

Partlayış AT2021 kataloqunda qeydə alınıb. Onun parlaqlığı Günəşdən 2 trilyon dəfə çoxdur. Bunları adi təxəyyülün gücü ilə təsəvvür etmək xeyli çətindir. Sadəcə, etiraf edək ki, kainat sirri-xudadır və onun sirlərini açmağa görünür, min illər lazımdır.

Hər halda, son illər elm və texnikanın inkişafı kainatı bizim üçün xeyli maraqlı və əlçatan edir.

## Ən sürətli radiosıçrayış

***2023-cü ildə Yerdən uzaq məsafədə radiosıçrayış aşkar edilib. 2023-cü il iyunun 19-da***



***qeydə alınan radiosıçrayış kosmosda 5 milyard il səyahət edib.***

Sürətli radiosıçrayışlar, hətta mütəxəssislərin özləri üçün də kifayət qədər müəmmalı hadisələr hesab olunur. Radiodalğalardakı qısa sıçrayışlar bir neçə milli saniyə davam etsə də, Günəşin 30 il ərzində ümumən yaydığı qədər enerji yaya bilir.

Alimlər hələlik radiosıçrayışların mənbəyini tapa bilməyiblər. Onların kosmik fəzada teztez sərbəst yerdəyişmə etdiyi də bəllidir. Bəzən radiosıçrayışlar eyni kosmik məkanda təkrar olunur.

## Marsda rekord sayda uçuşlar

***“İngenuity” NASA-nın Marsda hələlik ilk və yeganə vertolyotudur. Qurğu ötən ilin 16 sentyabrında 59-cu uçuşunu edib. Vertolyot 142,59 saniyə ərzində səmada bir nöqtədə asılı qalıb. Bu, rekord göstərici sayılır.***



Xatırladaq ki, Marsoxod “Preservance” “qırmızı planet”ə 2021-ci ilin fevralında çatıb və o vaxtdan “İngenuity” vertolyotu ötən ilin 17 dekabrınadək 67 dəfə uçuş edib. O, Marsın səmasında 121,1 dəqiqə havada qalıb və bütövlükdə 15,3 kilometr məsafə qət edib.

(ardı növbəti sayımızda)

***M.HACIXANLI***
***XQ***

## Hava

# Gün yağmursuz və dumanlı olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən yanvarın 8-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Səhər və axşam bəzi yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, səhər şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 5-8°, gündüz 9-12° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 15-19° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 8-13° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Qışda necə güclü olaq?

***Dekabr ayından başlayaraq orqanizm daha həssas olur və zəifləyir. Bir-iki dəfə xəstəlik, virus keçirən insanın immuniteti isə daha da yüklənir. Rusiyalı həkim İqor Strokov bununla bağlı immun sistemi gücləndirən qidaları açıqlayıb.***




Bildirib ki, ev şəraitində kalsiferol tərkibli balıq, xüsusən, okean, dəniz məhsulları, süd məhsulları, yumurta, bitki yağları qəbul etmək lazımdır. Həkimin fikrincə, ümumiyyətlə, əhali arasında kəskin D vitamini əskikliyi var. Eləcə də immuniteti gücləndirmək üçün vitamin C lazımdır. Gündəlik rasion canlı mikroorqanizmlərlə zəngin kefir, qatıq, yoqurtla bol olmalıdır.

Həkim, həmçinin bildirib ki, qədim zamanlarda insanlar yorğunluq zamanı immun sistemi gücləndirmək üçün bir sıra qida, giləmeyvə və bitkilərdən istifadə ediblər.

Sünbül, buğda cücərtisi sink, antioksidant və B qrup vitaminlə zəngindir.

İspanaq tərkibindəki fol turşusu (vitamin B9) ilə orqanizmdə yeni hüceyrələr yaranmasına və DNT-ni bərpa etməyə kömək edir. İspanağı çiy yemək lazımdır.

Brokkoli hüceyrələri, hətta xərçəngdən qoruyur. Qarnir kimi hər gün yemək olar.

Nar orqanizmi və qanı yeniləyir, ən güclü meyvədir.

Zəncəfilin özü, çayı antioksidant təsir edir. Eyni zamanda, orqanizmdə qoruyucu funksiya yerinə yetirir.

***Z.HÜSEYNLİ***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlaq İttifaqı Təşkilatı universitetin beynəlxalq münasibətlər kafedrasının müəllimi Nərgiz Əliyevaya atası

RÖVŞƏN ƏLİYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3001
SİFARİŞ 3428
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00